www.musavat.com
# YENİ MÜSAVAT
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 fevral 2016-cı il Cümə № 27 (6348) Qiymәti 60 qəpik

**Xəbər**

## Şok: Azərbaycanda 17 kişidə döş xərçəngi tapılıb

yazısı səh.4-də

**Gündəm**

### Gürcü baş nazirin müavininin qəfil Bakı səfərinin pərdəarxası



Bölgə və onun ətrafında təhlükəli vəziyyət iki strateji tərəfdaşı daha sinxron siyasət yürütməyə zorunda qoyur

yazısı səh.11-də

### Pənah Hüseyn müxalifətin taktikasını şərh etdi

yazısı səh.9-da

### Elman Rüstəmov səlahiyyətlərinin alındığını təkzib etdi

yazısı səh.13-də

### İsa Qəmbərin təşkilatından böyük aksiyalar anonsu

yazısı səh.6-da

### "Azərişıq" sabiq polis rəisinə vəzifə verilməsini şərh etmir

yazısı səh.12-də

### Tofiq Yaqublunun və İlqar Məmmədovun həbsindən 3 il ötür

yazısı səh.3-də

### Apelyasiya Şurası nəyi dəyişəcək-ekspertlər danışdı

yazısı səh.13-də

### Qərb maddi dəstək əvəzində Bakıdan nə istəyəcək?

yazısı səh.10-da

### Azərbaycanda qrip var, "donuz qripi" isə...

yazısı səh.15-də

### Sabiq maliyyə naziri yeni vəzifəsindən danışdı

yazısı səh.10-da

### Əməkdaşımız Nardarandakı son durumdan yazır

yazısı səh.3-də

### Kim sevirsə idmanı...ölür?

yazısı səh.15-də

## Sabiq nazir gizli şəkildə Türkiyəyə köçüb

# FƏRHAD ƏLİYEV AZƏRBAYCANDA QARIŞIQLIQ HAZIRLAYIR - SENSASİON İDDİA

Keçmiş iqtisadi inkişaf nazirinin yenidən hakimiyyət eşqinə düşdüyü haqda iddialar dolaşır; o, biznesinin əsas hissəsini qardaş ölkəyə transfer etdirib; AXCP ilə sıx iş birliyi içindədir; F.Əliyev Bakıdakı məxfi müttəfiqlərinə hər ay maliyyə dəstəyi verir, məqsəd...




yazısı səh.6-da

## Cəbhədə vəziyyət daha da gərginləşdi-düşmən ağır itki verdi

Düşmən ölkə yeni təxribatlara əl atdı, Ermənistan regiondakı neft korporasiyalarını hədələdi

yazısı səh.5-də



*Şahbaz Xuduoğlu:*

### "Yapon ildə 26 kitab, bizdə 3 min adam ildə 1 kitab oxuyur"

yazısı səh.7-də



Vahid Əhmədov

### Deputatdan zənginlərə ilginc müraciət

yazısı səh.12-də



*Ərəstun Oruclu:*

### "Azərbaycanda inqilab modelini qəti rədd edirəm"

yazısı səh. 8 və 9-da

YENİ MÜSAVAT
N 27 (6348) 5 fevral 2016



## Prezident Londonda

**Londonda "Suriyaya və regiona dəstək" donor konfransı başlayıb. APA-nın məlumatına görə, tədbir Böyük Britaniya, Almaniya, Küveyt, Norveç və BMT-nin birgə təşkilatçılığı ilə keçirilir. Tədbirdə Azərbaycan prezidenti İlham Əliyev də iştirak edir.**

Dövlət başçısı BMT-nin baş katibi Pan Gi Mun, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının baş naziri Devid Kemeron, Almaniya kansleri Angela Merkel, Norveç Krallığının baş naziri Erna Solberq və Küveyt Dövlətinin əmiri Sabah əl-Əhməd əl-Cabir əs-Sabahın dəvəti ilə tədbirə qatılıb.

Prezident fevralın 4-də Londonda "Suriyaya və regiona dəstək" konfransı çərçivəsində Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçlə görüşüb

Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq bildirildi. İqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsində, enerji, nəqliyyat və infrastruktur layihələrinin həyata keçirilməsində qarşılıqlı maraq ifadə olundu. Azərbaycan Prezidenti İlham Əliyev böyük İpək Yolu və "Cənub" qaz dəhlizi layihələrinin həyata keçirilməsi istiqamətində görülən işlərdən danışdı. Söhbət zamanı birgə layihələrin reallaşdırılması ilə bağlı qarşılıqlı razılığın əldə edilməsinə dair fikir mübadiləsi aparıldı. (AzərTAc).

## SOCAR bir neçə şəhərcik salacaq




**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) bir neçə ərazidə böyük şəhərciklər salmaq üçün razılıq alıb. "Report" xəbər verir ki, bu barədə SOCAR-ın prezidenti Rövnəq Abdullayev Bakı Biznes Mərkəzində gənc neftçilərlə görüşdə məlumat verib. O qeyd edib ki, bu barədə Azərbaycan prezidenti İlham Əliyevlə müzakirə aparılıb və razılıq alınıb.**

R.Abdullayev SOCAR-ın Qaradağ, Pirallahı və şirkətin torpağı olan digər ərazilərdə kooperativ tikintilər, böyük şəhərciklər salınacağını bildirib.

Onun sözlərinə görə, proqramın icrasına gələn həftədən başlanılacaq: "Bütün neftçi gəncləri evlə təmin etməyə çalışacağıq və proqram gələn həftədən başlayacaq. Artıq SOCAR-ın bir neçə idarəsinə tapşırılıb və hazırlıq işləri görülür. Hər idarəyə imkan yaradılacaq ki, torpaq sahəsi götürsün".

SOCAR rəhbərinin sözlərinə görə, neftçilər təqdim olunacaq uzunmüddətli kreditlər üzrə əmək haqqından tutulmaqla ödəniş həyata keçirəcəklər.

## Prorektor işdən çıxarıldı

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru Yusif Babanlı vəzifəsindən azad edilib. Aznews.az bildirir ki, gənclər və idman naziri Azad Rəhimov bununla bağlı əmr imzalayıb.**

Nazirliyin mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədova məlumatı təsdiqləyib. Bildirib ki, Y.Babanlı akademiyada aparılan struktur dəyişikliyi ilə əlaqədar vəzifədən kənarlaşdırılıb: "Ölkədə hazırda optimallaşma siyasəti aparılır. Bunu nəzərə alaraq təhsil ocaqlarında da dəyişikliklər aparılır. Dəyişikliklər nəticəsində akademiyada prorektorların sayının azaldılmasına başlanılıb. Y.Babanlı da buna görə prorektorluqdan uzaqlaşdırılıb".

S.Məmmədov onu da bildirib ki, Y.Babanlı nazirin əmri ilə digər vəzifəyə təyinat alıb: "Keyfiyyətin daha da yaxşılaşdırılması məqsədilə o, rektorun müşaviri vəzifəsinə təyinat alıb. Lakin səlahiyyətləri eyni qalıb, heç bir dəyişiklik yoxdur".


**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, **Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:


# Ombudsmanın nümayəndələri həbsxanalarda olublar

**İnsan Hüquqları üzrə müvəkkil Elmira Süleymanovanın tapşırığına əsasən, Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 12 və 13 saylı cəzaçəkmə müəssisələrinə əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçiriblər.**




Ombudsman Aparatından APA-ya verilən məlumata görə, MPQ-nin həkim üzvü də başçəkmələrdə iştirak edib. 12 saylı cəzaçəkmə müəssisəsinə planlı başçəkmə zamanı müəssisənin yataqxana, tibb-sanitar hissə, karantin otağı, cərimə təcridxanası, görüş yerləri, idman zalı və digər obyektlərinə baxış keçirilmiş, məhkumların hüquqlarının təmini baxımdan qış rejiminə uyğun olaraq saxlanılma şəraiti, qidalanma, içməli, isti və soyuq su təminatı, tibbi yardım, sovqat, gəzinti, görüş, telefon danışıqları, eləcə də müraciət hüquqlarının təmini və rəftarla bağlı mövcud vəziyyət və sənədləşmə yerində araşdırılıb.

13 saylı cəzaçəkmə müəssisəsinə keçirilmiş plandankənar başçəkmədə isə məqsəd Ombudsmanın ünvanına daxil olmuş müraciətlər araşdırılması, məhkumların hüquqlarının təmin olunması, o cümlədən müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olub.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən həmin müəssisələrdə çoxsaylı məhkumlar fərdi qaydada dinlənilib, habelə bir sıra şəxslər öz xahişləri ilə təkbətək qəbul edilib, söhbətlər aparılıb. Görüş, telefon danışığı, tibbi yardımla bağlı müraciətlər yerində araşdırılıb, bir sıra müraciətlər yerində təmin edilib.

Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilib, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilib. Başçəkmələr çərçivəsində müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CM-in daxili intizam qaydalarına müvafiq şəkildə saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilib.

Başçəkmələrin nəticəsi və saxlanılan şəxslərin müraciətlərinin təmin olunması ilə bağlı Ədliyyə Nazirliyinə müraciət olunacaq.



## Bakının mərkəzi küçələri bağlı olacaq

**"Formula 1" yarışına hazırlıq işləri ilə bağlı paytaxtın yarış trekinin üzərinə düşən mərkəzi küçələrində təmir-tikinti işləri qismən aparılır.**

"Qafqazinfo"ya daxil olan məlumata görə, asfalt örtüyünün dəyişdirilməsi ilə əlaqədar Zərifə Əliyeva küçəsinin Səməd Vurğun ilə Əziz Əliyev küçələri arasındakı hissəsi bir günlüyünə bağlı olacaq.

Bununla yanaşı, Neftçilər prospektinin Rəsul Rza ilə Əziz Əliyev küçələri arasındakı hissəsində də nəqliyyatın hərəkəti həmin gün tamamilə dayandırılacaq. Buna alternativ olaraq Neftçilər prospektinin Səməd Vurğun ilə Əziz Əliyev küçələri arasındakı hissəsində avtomobillərin hər iki istiqamətdə hərəkəti təşkil olunacaq. Bundan başqa, fevralın 4-ü axşam saatlarından etibarən Neftçilər prospektinin Bülbül küçəsi ilə kəsişməsindən Azneft dairəsinə qədər olan hissəsi bağlı olacaq. Burada avtomobillərin hərəkətinə qoyulmuş qadağa fevralın 6-sı səhər saatlarınadək davam edəcək.

## Erməni girovluğunda olanlardan yeni xəbər var



**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əməkdaşları Kəlbəcərdə ermənilər tərəfindən girov götürülən azərbaycanlılara baş çəkiblər. BQXK-nın Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova APA-ya bildirib ki, başçəkmə fevralın 3-də baş tutub.**

BQXK-nın nümayəndələri Dağlıq Qarabağda saxlanılan azərbaycanlılara ailə məlumatlarını çatdırıb, onlardan da ailələri üçün məlumat alınıb.

İ. Hüseynovanın sözlərinə görə, BXQK mandatına uyğun olaraq, saxlanılan şəxslərə ona görə baş çəkir ki, saxlanma şəraitini və onlarla davranışı monitorinq etsin və bu insanların ailələri ilə əlaqə saxlamasına yardımçı olsun.

Xatırladaq ki, ötən ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan Silahlı Qüvvələri tərəfindən girov götürülüblər, Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb.

H. Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib.

İşğal altındakı Dağlıq Qarabağda D. Əsgərov və Ş. Quliyev üzərində qanunsuz "məhkəmə" qurublar. "Məhkəmə"nin qərarı ilə D. Əsgərov ömürlük, Ş. Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilmə cəzasına məhkum olunub.

## Özünü 3-cü mərtəbədən atdı

**Balakəndə intihar hadisəsi baş verib. APA-nın məlumatına görə, hadisə fevralın 4-də Balakən rayon Mərkəzi Xəstəxanasında qeydə alınıb. Xəstəxanada müalicə alan, rayonun Katex kənd sakini, 1982-ci il təvəllüdlü Əziz Əliağa oğlu Əhmədov 3-cü mərtəbədən özünü atıb. O, aldığı xəsarətdən hadisə yerində dünyasını dəyişib.**

APA-nın əldə etdiyi məlumata görə, Ə. Əhmədov Katex kəndində vətəndaşların mülklərini yandırmaqda təqsirli bilinərək bir neçə gün əvvəl polis tərəfindən saxlanılıb. O, polis şöbəsində kəsici alətlə özünə xəsarət yetirərək intihara cəhd edib. Lakin cəhdin qarşısı alınıb və xəstəxanaya yerləşdirilib.

Faktla bağlı Balakən Rayon Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, istintaq gedir.

## Türkiyə suriyalı mühacirlərə 10 milyard dollar xərcləyib

**"Türkiyədə suriyalı mühacirlər olmayan şəhər yoxdur. Bu günə qədər ölkəmizdə yaşayan mühacirlərə 10 milyard dollar pul xərcləmişik".**

Virtualaz.org saytı Türkiyə mətbuatına istinadən xəbər verir ki, bunu Londonda "Suriyaya və regiona dəstək" donor konfransında çıxışı zamanı Türkiyənin baş naziri Əhməd Davudoğlu deyib.

O vurğulayıb ki, Türkiyə bundan sonra da Suriyadakı vətəndaş müharibəsindən qaçıb Türkiyəyə sığınan mühacirlərə köməyi davam etdirəcək: "Bu gün biz məğlub olsaq, bu, təkcə Suriya üçün yox, bəşəriyyət üçün məğlubiyyət olacaq. Ötən gün Ankarada xəstəxanaya baş çəkdim, orada hava hücumuna məruz qalıb üzü yanmış uşaqlar var idi. Eyni otaqda da terror hücumuna məruz qalmış türk uşaq gördüm. Bu uşaqlar eyni nəsildəndir və biz bu uşaqlar üçün nə edəcəyik? Türkiyədə 2,5 milyon suriyalı mühacir var, ölkədə suriyalı mühacirin olmadığı şəhər yoxdur".

**Baş nazir əlavə edib ki, suriyalılar ölkə vətəndaşı olmadığı halda onlara işləmək üçün dövlət tərəfindən icazə verilib:** "Nə olursa olsun Türkiyə yardıma davam edəcək. Bu siyasətə davam edəcəyik. Heç bir suriyalı köməksiz qalmayacaq".

## Ömürlük məhbus özünü hamamda asıb

**Bakı Şəhər Prokurorluğu Qobustan həbsxanasında baş verən intihar hadisəsi ilə bağlı məlumat yayıb.**

Bakı Şəhər Prokurorluğundan APA-ya verilən məlumata görə, fevralın 3-də saat 11:30 radələrində Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Qaradağ rayon ərazisində yerləşən həbsxanasında cəza çəkən Gəncə Ağır Cinayətlər Məhkəməsinin 16 iyun 2015-ci il tarixli hökmü ilə ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş, 1975-ci il təvəllüdlü Sübhay İbrahimov həbsxananın korpus üzrə tərtib olunmuş cədvəlinə əsasən çimmək üçün hamam otağına daxil olub və orada yumaq məqsədilə özü ilə gətirdiyi istifadəsində olan mələfəni nəfəsliyə bərkidilmiş dəmir barmaqlığa bağlayaraq özünü asıb.

Həbsxananın tibb sanitar hissəsinin və ərazi üzrə çağırılmış təcili tibbi yardım həkimlərinin göstərdiyi ilkin tibbi yardımlara baxmayaraq, məhkum S.İbrahimov vəfat edib.

Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.



## Yazarımız Tofiq Yaqubluya Azadlıq!

**Müsavat başqanının müavini Tofiq Yaqublunun və REAL sədri İlqar Məmmədovun həbsindən üç il ötür.**
**T.Yaqublunun qızı Nigar Yaqublu bildirib ki, atası hazırda xəstədir. "O cür şəraitdə saxlanması onun sağlamlığına problem yaradıb",- deyə o qeyd edib.**
**N.Yaqublu martda gözlənilən əfv fərmanına ümid etmədiklərini də bildirib: "Artıq əfv məsələsi bizim üçün çoxdan bağlanıb, ona görə də martda atanın həbsdən çıxacağını düşünmürəm".**



# Tofiq Yaqublunun və İlqar Məmmədovun həbsindən 3 il ötür

## Müsavat başqanının müavini xəstədir; fevralın 25-də isə REAL sədrinin apelyasiya məhkəməsi olacaq

Qeyd edək ki, ötən ilin oktyabrında Avropa İnsan Hüquqları Məhkəməsi Müsavat başqanının müavini Tofiq Yaqublunun azadlıq hüququnun pozulmasını tanıyıb. Məhkəmə Avropa İnsan Haqları Konvensiyanın 5-ci maddəsinin birinci bəndinə əsasən Tofiq Yaqublunun dərhal həbsdən azad olunmasına və ona 24 min avro təzminat ödənilməsinə qərar verib. N.Yaqublu isə qeyd edib ki, hələ ki təzminat məsələsindən səs-soraq yoxdur. Üç ildir ailə başçısı olmadan yaşamağın çətinlikləri barədə qısa danışan N.Yaqublu "Ailə başçısının evdə olmamasının gətirdiyi çətinlikləri hamınız gördünüz. Bizim ailənin hansı çətinliklər gördüyünü artıq hamı bilir. Bundan artıq daha nə deyim",- deyə sual edib.

REAL sədri İlqar Məmmədovun da həbsindən keçən müddət ərzində onun azadlığa buraxılması ilə bağlı Avropanın nüfuzlu hüquq müdafiə təşkilatlarının bəyanat vermələrinə baxmayaraq, o, hələ də həbsdədir. Hazırda Məmmədov 2 saylı cəzaçəkmə müəssisəsində saxlanılır.

**REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova ilə keçən 3 ili dəyərləndirdik. O, İlqar Məmmədov üçün həbs müddətinin çətin keçdiyini söylədi:** "İlqarın həbsindən artıq 3 il keçdi. Bizim üçün nə qədər çətin olsa da, bu illər onun üçün daha ağır keçib. Amma İlqar həbsdə ola-ola belə möhkəm dayanırsa, biz də dayanmalıyıq. Dostlarımız sağ olsunlar, hər zaman yanımızda olublar. Bizi heç zaman yalnız buraxmadılar. Cəmiyyət arasında İlqar barəsində daim xoş sözlər eşidirəm. Bu məni çox sevindirir. Onun həbsi məni nə qədər üzsə də, doğru bildiyi yolda mübarizə apardığı üçün çox qürurluyam".

**V.Məmmədova həyat yoldaşının ailədə hər zaman yerinin göründüyünü də vurğuladı: "Ailəmizdə daim onun yeri görünür. Xüsusilə qızımız üçün. Qızım 3 ildir atasından ayrı böyüyür. Bu illər ərzində atasından öyrənə biləcəyi çox şey ola bilərdi. Çünki İlqar hər gün çalışırdı ki, uşağa yer ayırsın. Bir şeylər oxuyar, bir şeylər öyrənərdilər. Hər zaman İlqarın fikirlərinə hörmətlə yanaşmışam. Hazırda siyasi məhbuslardan əfv yazanlar var. Amma heç vaxt İlqarın fikirlərinə qarşı çıxmaram".**

**REAL sədrinin həyat yoldaşı onun son üç ildə daha çox tanındığını qeyd etdi:** "Son üç ildə düşünmürəm ki, İlqar nədəsə geri qalıb. Əksinə, daha çox tanınıb və bu davam edir. Əminəm ki, yaxın vaxtlarda İlqar azadlığa çıxacaq, işinə qaldığı yerdən davam edəcək. Sizlərə öz təşəkkürümü bildirirəm. Çünki daim İlqarı diqqətdə saxlamısınız, onunla bağlı xəbərlər vermisiniz".

**V.Məmmədova fevralın 25-də Şəki Apelyasiya Məhkəməsində həyat yoldaşının məhkəməsinin olacağını bildirdi:** "Bu həftə telefonla danışa bilməmişik. Fevralın 25-də Şəki Apelyasiya Məhkəməsində proses təyin edilib. Bir neçə ay bundan öncə Ali Məhkəmə işi apelyasiyaya qaytarmışdı. Bu məhkəmənin necə sonluğunun olacağını gözləyirik. İlqarın özü hazırda bu prosesə hazırlaşır. Avropa Məhkəməsinin, Nazirlər Komitəsinin İlqarın azadlığa buraxılması ilə bağlı qətnamələri var. Amma hələ ki bu qərarlara əməl edilmir".

Müsavat başqanının müavini və "Yeni Müsavat"ın köşə yazarı Tofiq Yaqublu və REAL hərəkatının lideri İlqar Məmmədov 2013-cü ildə İsmayıllıda baş verən etirazlardan sonra həbs olunublar. Onlar həmin vaxt kütləvi iğtişaşlara çağırma və hakimiyyət nümayəndələrinə müqavimət göstərməkdə ittiham olunublar. 2014-cü ildə isə Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Tofiq Yaqublu isə 5, İlqar Məmmədov 7 il müddətinə azadlıqdan məhrum edilib. Beynəlxalq təşkilatlar onların hər ikisinin həbsini siyasi motivli sayır. Azərbaycan hökuməti bu iddiaları rədd edir.

❑ **RÖYA, Cavanşir ABBASLI**

# Nardaranın baş meydanı hələ də Daxili Qoşunların nəzarətindədir

## Əməkdaşımız qəsəbədəki son durumdan yazır...

**Artıq iki aydan çoxdur ki, Bakının Nardaran qəsəbəsinə giriş və çıxış Daxili Qoşunların və polisin nəzarətindədir. Qəsəbəyə yerli sakinlərdən başqa heç kim buraxılmır. Kəndin bütün girişlərində qurulan postlar hələ də yerindədir. Yollara düzülən beton pillələr də olduğu kimi qalır.**

Musavat.com-un əməkdaşı dünən Nardaranda olub və qeyd etdiklərimizin canlı şahidi olub. Nardarana bütün girişlər ötən il dekabrın 1-dən olduğu kimi, polislər tərəfindən nəzarətdə saxlanılır. Kənar şəxslərin qəsəbəyə girişi qadağandır. Şəxsiyyət vəsiqələri polislər tərəfindən yoxlanılır və qəsəbə sakini olmayanlar geri qaytarılır. Qəsəbəyə işləyən yeganə marşrut avtobusundan başqa əraziyə bütün maşınlar polis əməkdaşları tərəfindən yoxlanıldıqdan sonra buraxılır.

Eyni zamanda Nardaranda su, qaz və işıq xətlərinin çəkilişi davam edir. Qəsəbənin kanalizasiya sistemi də yenilənir. Qəsəbənin girişindəki postlardan əlavə kənd meydanına - İmam Hüseyn meydanına aparan yollarda da postlar var. Qəsəbəyə girən maşınlar bu postlarda təkrar yoxlanılır.

Kəndə gələn avtobus İmam Rza meydanı adlanan əraziyə qədər irəliləyə bilir. Əvvəllər kəndin mərkəzinə - İmam Hüseyn meydanına, oradan da sonuncu dayanacağa - Əli meydanına qədər hərəkət edən avtobus yollarda aparılan təmir işlərinə görə sonuncu dayanacaq olaraq burada dayanır. Kənd sakinləri qalan bir neçə kilometr məsafəni isə piyada qət edirlər.

Hazırda əsas işlər kəndin əsas meydanında və meydana aparan Abşeron küçəsində görülür. İşıq dirəkləri dəyişdirilir, qaz xətləri yenilənir, kanalizasiya sistemi bərpa edilir və yol genişləndirilir. Yol kənarındakı torpaq sahələrinin hasarları və evlər sökülüb. Verilən rəsmi açıqlamaya görə, plana düşən torpaq sahələrinin, evlərin hər kvadratmetrinə görə 500 manat kompensasiya ödəniləcək. Torpaq sahələrinə və qeyri-yaşayış obyektlərinə görə isə sakinlərə 100 manat kompensasiya veriləcək.



**Qəsəbə sakinlərindən bir neçəsi ilə söhbətimizdə öyrəndik ki, sökülən hasarlara və qeyri-yaşayış obyektlərinə görə ciddi narazılıq olmasa da bəzi evlərin sahibləri verilən kompensasiya ilə razılaşmayıb.** "Plana düşdüyü üçün evin bir hissəsini sökür, buna görə də 500 manat kompensasiya ayırırlar. İndiki vaxtda bu məbləğlə ev tikmək olarmı? Bir neçə nəfər narazı olsa da sonradan razılaşmaq məcburiyyətində qaldılar", - deyə sakinlərdən biri bildirir.

Kəndə aparan yollar hazırda genişləndirilir və hasara alınır. Sökülən hasarlar arxasından görünən əsasən parniklərdir. Nardaranda yerli sakinlər əsasən kənd təsərrüfatı, xüsusilə də əkinçiliklə məşğul olur. İşsiz sakinlərin çoxluq təşkil etdiyi qəsəbədə bir neçə gün əvvəl Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əmək yarmarkası da keçirilmişdi. Qəsəbə təxminən bir aylıq fasilədən sonra elektrik enerjisi ilə təmin edilib.

Xatırladaq ki, ötən ilin noyabr ayının 26-da polislə dindarlar rasında baş verən silahlı qarşıdurmadan sonra kənddə etiraz aksiyaları keçirilmiş, kənd yolları bağlanmışdı. Bundan sonra kəndə verilən elektrik enerjisi dayandırılmışdı. Səbəb olaraq isə qəsəbə sakinlərinin elektrik enerjisinin istifadəsinə görə dövlətə olan borcu göstərilmişdi. Nardarana elektrik enerjisinin verilişi ötən il, dekabr ayının sonlarında yenidən bərpa edilib.

Kəndə uzun illər sonra təbii qaz da verilib. Artıq qəsəbədə qaz xətləri yenilənib, sayğaclar dəyişdirilib. Kəndin böyük hissəsi təbii qazla təmin olunub. Kənd mərkəzində 42-ci polis bölməsi tikilib və ötən ilin sonundan istifadəyə verilib. "Azərişıq" ASC-nin də inzibati binasının açılışı olub. Kənd meydanında bir neçə dövlət qurumunun da inzibati binasının inşası davam etdirilir.

Nardaranda aksiyaların keçirildiyi, barrikadaların qurulduğu İmam Hüseyn meydanı Daxili Qoşunların nəzarətindədir. Meydanda silahlı əsgərlər növbə çəkir. Meydan ətrafında olan kiçik ticarət obyektləri sökülüb və genişləndirilib. Ətrafda xeyli sayda nəzarət kameraları quraşdırılıb.

Qəsəbəyə aparan yollarda və mərkəzi küçələrdə bir dənə də olsun dini şüarlar və bayraqlara rast gəlmək olmur. Onu da yada salaq ki, Nardaranda tikinti və təmir işləri ötən ilin dekabr ayından başlayıb. Prezident İlham Əliyev qəsəbədə infrastrukturun yenilənməsi, qəsəbənin sosial problemlərinin həlli məqsədilə 2015-ci ilin dekabrında 12 milyon manat vəsait ayırmışdı. Nardaranda görülən işlərin bu ayın sonunadək yekunlaşdırılması planlaşdırılır.







❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 27 (6348) 5 fevral 2016



## Rüfət Səfərova təhdid zəngləri davam edir

Vəkili polisə müraciət edib

**Zərdab rayonunun sabiq müstəntiqi, ötən həftə həbsdən azad edilən, YAP-çı Eldar Sabiroğlunun oğlu Rüfət Səfərova anonim zənglər daxil olmaqda davam edir.**

Bu barədə musavat.com-a açıqlamasında R.Səfərovun vəkili Bəhruz Bayramov məlumat verib. Onun sözlərinə görə, təhdid zəngləri yanvarın 24-dən gəlməyə başlayıb: "Ən son zəng isə iki gün öncə naməlum telefon nömrəsindən daxil olub. Bu dəfə zəng edən şəxs R.Səfərovu ədəbsiz söyüşlərlə təhqir edib, özünə və ailə üzvlərinə yönəlik ən təhqiramiz ifadələr işlədib".

Müsahibimizin sözlərinə görə, zəng edən şəxs sabiq müstəntiqi çox biabırçı formada Zərdaba aparacağı ilə təhdid edib, bundan başqa, özünü və ailə üzvlərini də hədələyib.

Müsahibimiz xatırlatdı ki, yanvar ayında edilən zənglərin sahibləri həm kişi, həm də qadın olub. Bu dəfə isə zəng edən şəxs kişidir. B.Bayramov dedi ki, bu təhdidlərlə bağlı bu gün polisə müraciət edəcək.

**Müsahibimiz zənglərin kim tərəfindən edilməsi ilə bağlı hər hansı təxmin yürütmədi:** "Bu adamların kimliyi, məqsədləri mənim üçün maraqldır. Çünki Rüfət Səfərov ev dustağıdır, çıxdığı gündən mətbuata hər hansı açıqlama verməyib. Danışmır, hər hansı söz demir. Heç bir fəaliyyəti də yoxdur. Sadəcə, təqsirləndirilən şəxs statusundadır. Onunla bağlı kimin nə problemi var, qaranlıq qalır".

**B.Bayramov Binəqədi rayonu 5-ci polis bölməsinə ərizə ilə müraciət etdiklərini dedi. Müsahibimizin sözlərinə görə, bu barədə mətbuatda məlumat gedəndən sonra zənglər kəsilib:** "Rüfət Səfərov ev dustağı olduğu üçün gərək polisdən məktub alaq. Onu dindirsinlər, izahatı alınsın. Təhqiqatın məktubunu gözləyirik ki, məktubu versinlər".

Hazırda isə R.Səfərova mediaya danışmamaqla bağlı sərt göstəriş verilib. Sabiq müstəntiq bu səbəbdən ona gələn telefon zənglərini cavablandırmır. İlk gün öz fikirlərini sosial şəbəkə vasitəsilə yayan R.Səfərov atasının onun hesabına daxil olub, statusunu silməsinə görə də qəzəblənib və bununla bağlı bir-birinin ardınca iki status paylaşıb.

Qeyd edək ki, yanvarın 15-də Binəqədi Rayon Məhkəməsinin qərarı ilə R.Səfərov barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Həmin qərardan məhkəməyə müraciət olunaraq, həbs qərarının ev dustaqlığı ilə əvəz olunması istənilib.

Məhkəmənin qərarına əsasən, R.Səfərov Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsi ilə təqsirləndirilir.

❑ Sevinc TELMANQIZI

## Şok: Azərbaycanda 17 kişidə döş xərçəngi tapılıb

Süd vəzi xərçəngi xəstəliyi diaqnozu ilə mərkəzə müraciət edənlərin sayı ilbəil artır

**"2014-cü ildə Azərbaycanda 1400 qadında, 17 kişidə süd vəzi xərçəngi aşkarlanıb".**

APA-nın məlumatına görə, bunu Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin mamoloqu Elgül Əsgərova deyib. O bildirib ki, süd vəzi xərçəngi xəstəliyi diaqnozu ilə mərkəzə müraciət edənlərin sayı ilbəil artır: "Ancaq çox yaxşı haldır ki, ötən illərlə müqayisədə xəstələr erkən mərhələdə müraciət edirlər. Bu da onların tezliklə müalicə olunub, normal həyata qayıtmasına kömək edir". E. Əsgərova qeyd edib ki, müraciət edən xəstələrin arasında yaşı 18 olanlar da var.

# Cahangir Hacıyevin "pul çəkmə əməliyyatı"nın şok təfərrüatları

## Həbsdəki bankir gözətçinin adına 5 milyon manat kredit götürübmüş

**Azərbaycan Beynəlxalq Bankı (ABB) ətrafında baş verən mənfi proseslər haqda mətbuatda illərlə yazılar dərc olundu. Yarıdan çox hissəsi dövlətə məxsus olan bankda çox ciddi problemlərin yaşandığı, ABB-nin geri qaytarılmayan kreditlərinin həcminin kritik həddi aşması nəhayətdə problemə müvafiq orqanların diqqətini cəlb etmiş oldu.**

Bankın rəhbəri Cahangir Hacıyevin illərlə susqunluq nümayiş etdirməsi sonda onun özünün də, ətrafının da istintaqa cəlb olunması, həbsinə gətirib çıxardı.

Bu gün "Beynəlxalq Bank işi" üzrə müxtəlif məlumatlara görə həbsdə 100-ə yaxın şəxs var. Həmin şəxslərin arasında bankdan iri məbləğdə kreditlər götürmüş şəxslərlə yanaşı, bankın rəhbəri Cahangir Hacıyev də daxil olmaqla, bank filiallarının müdirləri, müavinləri, sıravi işçiləri də var. Redaksiyamıza daxil olan məlumata görə, Beynəlxalq Bankdan talanan kreditlərin böyük bir hissəsi şəxsən Cahangir Hacıyevin özünə çatıb. Belə ki, C.Hacıyev yaxın ətrafının adına iri məbləğlərdə kreditlər götürərək qaytarmayıb. Məsələnin üstü Cahangir Hacıyev "xəstəliyi ilə ələqədar" vəzifəsindən gedəndən sonra açılıb. Məlum olub ki, C.Hacıyev bankdan yaxınlarının adına kreditlər rəsmiləşdirib. Bundan çox vaxt adına kredit götürən şəxslərin özlərinin də xəbəri olmayıb. C.Hacıyev hətta çoxsaylı filiallarından birində gözətçi işləyən şəxsin adına da kredit rəsmiləşdiribmiş. Həmin şəxs bu haqda Cahangir Hacıyevin



həbsindən sonra məlumat alıb. Banklardan birinə 3 min manat kredit almaq ümidi ilə yaxınlaşan gözətçiyə "problemli müştərisiz" deyib kredit verməyiblər. Gözətçi banklara kredit üçün heç vaxt müraciət etmədiyini söylədikdə isə ona "adınıza 5 milyon manat kredit var" söyləyiblər. Sonradan isə məsələ araşdırılıb və məlum olub ki, gözətçinin adına krediti Cahangir Hacıyev götürüb.

Bugünlərdə qəzetimizə müsahibə verən Hacı İbrahim Nehrəmli də bu məqamı təsdiqləyən fikirlər söyləyib. İş adamı deyib ki, Cahangir Hacıyev onun adına 100 milyon manat kredit alıb. Həmin kreditlərin götürülməsindən isə onun xəbəri olmayıb.

**Hacı İbrahimin müsahibəsindən sitat:**

"Beynəlxalq Bankdan 6 obyekt üzrə cəmi 280 milyon kredit götürmüşəm. Hər bir kreditimizin də arxasında girovlarımız var. Ancaq bu bankda adıma qeyri-qanuni şəkildə 91 milyon manat yazaraq, oğurlayıblar. Bu kreditdən heç xəbərim də yoxdur. Həmçinin 45 milyon da şirkətim adına dollar götürüblər. Beynəlxalq Bankın keçmiş prezidenti Cahangir Hacıyev fevral devalvasiyasından 3 gün öncə, yəni 18 fevralda adıma dediyim məbləğdə kredit götürüb. Bununla bağlı banka zəng edərək, məsələni araşdırdım. Söylədilər ki, Cahangir Hacıyevin vaxtında rəhbərlik göstəriş verib, biz də etmişik. Dedim ki, rəhbərlik özünün əmisinin, xalasının adına götürərdi də... Cavab verdilər ki, onların da adına götürüb. İndi yer olmadığı üçün sizin adınıza götürdülər. Bu müqavilədə nə imzam var, nə də hər hansı bir kontraktım".

**Hacı İbrahim deyib ki, istintaqa da bu haqda xəbər verib:** "Bəli, onlara da yazmışam, ancaq cavab ala bilməmişəm. "ASAN Xidmət"ə müraciət edib borcumun miqdarını öyrəndim. Bankdan isə dedilər ki, "adınıza qeyri-qanuni formada borc götürülüb, lakin bu barədə sizə yazılı məlumat verə bilmərik".

Xatırladaq ki, ABB səhmlərinin 50,2 faizi Maliyyə Nazirliyində olmaqla dövlət bankı sayılırdı. 2014-cü ilin hesabatından aydın oldu ki, ABB-nin ümumi kredit portfeli 8 milyard manatdan çox təşkil edib. Məbləğin 7 milyarddan çoxu kooperativ, yəni hüquqi şəxslərə verilən kreditlərdir ki, bu da ümumi portfelin 90 faizindən çoxdur. Böyük iş adamlarına, dövlət qurumlarına, oliqarxlara verilən borclar isə illərdir geri qaytarılmayıb. ABB-dən kredit götürən iş adamlarının heç biri borcunu geri ödəməyib. Buna görə də C.Hacıyev vəzifəsindən gedəndən sonra bankda çox ciddi araşdırmalar aparılıb və pulların administrativ üsullarla geri ödətdirilməsi qərarı verilib. C.Hacıyev ABB-yə rəhbərlik etdiyi dövrdə bankda bəzi hesablamalara görə 5 milyardlıq problemli kredit portfeli yaranıb. Bu məbləğin böyük bir hissəsinin C.Hacıyevin yaxın adamlarının adına rəsmiləşdirilib bankdan çıxarıldığı da gələn məlumatlar sırasındadır.

❑ E.HÜSEYNOV

# Sevinc Babayevanın oğlu arvadını bıçaqlayıb

**Bakının Binəqədi rayonunda keçmiş məhkum arvadını bıçaqlayıb. "Report" xəbər verir ki, Binəqədi qəsəbəsi 1-ci mədən korpus 30-da yaşayan, əvvəllər məhkum olunmuş 1989-cu il təvəllüdlü Ayxan Məmmədov evinin həyətində arvadı Günay Məmmədovanın baş, sinə və kürək nahiyələrindən bir neçə bıçaq zərbəsi vurub.**

G.Məmmədova Kliniki Tibbi Mərkəzə yerləşdirilib, vəziyyəti qənaətbəxşdir.



İlkin ehtimala görə, hadisə qısqanclıq zəminində baş verib. A.Məmmədovun tutulması üçün axtarış tədbirləri davam etdirilir.

A.Məmmədov Azərbaycan Beynəlxalq Universitetinin (ABU) sabiq rektoru Elşad Abdullayevin yaydığı videolarda keçmiş deputat Gülər Əhmədova ilə onun arasında vasitəçi kimi iştirak edən Sevinc Babayevanın oğludur. S.Babayeva "İnterpol" xətti ilə axtarışa verilib.

O, axtarışda olduğu vaxt Türkiyənin İstanbul şəhərində fəaliyyət göstərən hospitallardan birində ürək xəstəliyindən vəfat edib.



# Cəbhədə vəziyyət daha da gərginləşdi-düşmən ağır itki verdi

## Düşmən ölkə yeni təxribatlara əl atdı, Ermənistan regiondakı neft korporasiyalarını hədələdi

**AŞ PA-nın qış sessiyasındakı müzakirələrdə həmsədrlərin nümayişkaranə şəkildə müdafiə etdiyi işğalçı Ermənistan son günlər daha da aqressivləşib. Son bir həftədə cəbhədə iki Azərbaycan əsgərinin erməni təxribatları nəticəsində şəhid olması da bunun əyani sübutudur. Müdafiə Nazirliyinin yaydığı rəsmi məlumata görə, fevralın 3-də saat 17.50 radələrində Azərbaycan-Ermənistan dövlət sərhədində düşmən təxribatı nəticəsində hərbi qulluqçumuz əsgər Mirzəyev İmran Xudaverdi oğlu şəhid olub.**

Nazirlikdən bildirilib ki, Silahlı Qüvvələrimizin həmin istiqamətdə yerləşən bölmələrinin keçirdiyi əməliyyat tədbirləri nəticəsində təxribat qrupunun 3 üzvü məhv edilib.

**Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi Vaqif Dərgahlı "Yeni Müsavat"a bildirdi ki, düşmən təxribatı Azərbaycanın şimal-qərb istiqamətində törədilib:** "Düşmənə atıcı və digər silahlarla cavab zərbələri endirilib və ilkin ehtimala görə, düşmənin 3 hərbçisi məhv edilib".

**V.Dərgahlı erməni tərəfin öz itkiləri ilə bağlı məlumatları gizlətdiyini də vurğuladı. Nazirlik sözçüsü düşmən ölkənin işğal olunmuş ərazilərdən kənarda gərginliyi artırmasının məqsədli olduğunu dedi:** "Təbii ki, məqsədli şəkildə dövlət sərhədlərimiz boyu gərginlik yaradırlar. Sonuncu hadisələr işğal olunmuş ərazilərdən kənarda baş verib. Düzdür, biz cəbhə xəttini bölmürük, amma bu hadisələr kifayət qədər diqqət çəkir. Deməli, burada xüsusi məqsəd var". **Düşmən ölkə ordumuzun Ermənistana məxsus minik avtomobilini hədəfə aldığını iddia etsə də, Azərbaycan tərəf bunu dezinformasiya adlandırıb. V.Dərgahlı bildirdi ki, erməni tərəfi dövlət sərhədindəki təxribatı ört-basdır etmək və Azərbaycanı günahlandırmaq məqsədilə guya mülki şəxsə məxsus "VAZ-2106" markalı avtomobilin vurulması barədə absurd xəbər yayıb:** "Azərbaycan Silahlı Qüvvələri beynəlxalq humanitar hüququn prinsip və normalarına riayət edərək heç vaxt dinc əhalini, mülki obyektləri və avtomobilləri atəşə tutmayıb. Bu kimi məlumatların heç bir əsası yoxdur və növbəti erməni yalanıdır".

"Əgər iki ölkə toqquşarsa, Azərbaycan birtərəfli qaydada məhvetmə müharibəsi aparacaq". Bunu isə Ermənistanda "komandos" ləqəbi ilə tanınan ehtiyatda olan general-mayor Arkadi Ter-Tadevosyan dilə gətirib. (publika.az). Erməni cani Qarabağda müharibə olacağı təqdirdə Azərbaycan və Türkiyənin Ermənistanı məhv edəcəyini etiraf edib: "Müharibə olacaqsa, biz vuruşacağıq. İndi müharibə ehtimalı daha böyük görünür". Erməni "komandos" ölkəsinin Azərbaycana qarşı xain planını da açıqlayıb. "Bizim raketlərimiz Azərbaycanın neft-qaz yataqlarına tuşlanıb və müharibə olacaqsa, biz onları partladacağıq" deyə, iddia edib. "Arxalı köpək qurd basar" prinsipindən çıxış edən erməni cinayətkarlar həm qorxudur, həm də qorxduqlarını nümayiş etdirirlər. Şübhə yox ki, bu cür hay-küylə Ermənistan Rusiyanın və KTMT-nin dəstəyini qazanmağa cəhd göstərir. "Ermənistanda hər dəfə ara qarışanda, işləri çətinə düşəndə dar gün üçün saxladıqları, əlləri qana bulaşmış canilər yada düşür və ortalığa atılır". Bunu erməni generalı Arkadi Ter-Tadevosyanın Azərbaycana qarşı növbəti hədə-qorxu dolu çıxışına dair ANS-in sorğusuna cavab olaraq **keçmiş hərbi birlik komandiri, ehtiyatda olan general-leytenant, keçmiş korpus komandiri Yaşar Aydəmirov** deyib.

Y.Aydəmirov bildirib ki, "komandos" ləqəbli bu üzdən iraq "qəhrəman" hələ də keçmiş xülyalarının eyforiyası ilə yaşayır. "Onun bugünkü real vəziyyətdən, qüvvələr nisbətindən, cəbhədəki durumdan, Silahlı Qüvvələrimizin sərəncamında olan texnika və vasitələrdən, ən əsası isə Azərbaycan əsgərinin döyüş ruhundan ümumiyyətlə xəbəri yoxdur. Düşmən anlamalıdır ki, torpaqların işğaldan azad olunması uğrunda Silahlı Qüvvələrimiz istənilən an əməliyyat həyata keçirməyə qadirdir və qalib gələcəyimizə əminik".

**Milli Məclisin Müdafiə, Təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a dedi ki, Arkadi Ter-Tadevosyanın hədələri və cəbhədəki son vəziyyət iki səbəblə bağlıdır:** "Birincisi, Suriya ətrafında dairə qapanır və Rusiya son raundda qalib gəlmək üçün Cənubi Qafqazı dünyaya xatırladır. Yəni bizim regionda Qərbin iqtisadi dayaqlarını hər an sarsıda biləcəklərini nümayiş etdirməyə çalışırlar. İkincisi, ermənilərdə mötəbər kəşfiyyat məlumatları Azərbaycanın bütün cəbhəboyu mövqeyinin kəskin bir şəkildə gücləndiyini təsdiqləyir. Hər gün atəşkəsin pozulma intensivliyi qarşı tərəfi resurs və canlı qüvvə itkisinə məruz qoyur. Dünən iki tankın məhv edilməsinin siz hansı qiymətə başa gəldiyini və onların yerinə yetirdiyi hərbi əhəmiyyəti konkret hesablaya bilərsiniz. İrəvana gedən tabutlar artdıqca, Sərkisyanın aparatından müxtəlif direktivlər gəlir, lakin səngərdə dayanan erməni o əmrləri əvvəlki tək yerinə yetirmək gücündə deyil. Ona görə həmin general hazırda Suriya problemi ətrafında Londona toplaşan dövlətlərə neft kəməri hədəsi ilə cavab verməklə özlərini İŞİD-dən heç nəylə fərqləndirmirlər. Qərb neft məsələsində çox həssasdır və belə avantürist bəyanatı verən faşistlərdən daha pisdir. Çünki Adolf Hitler belə, Bakını və neft hövzələrini bombalamaq əmrini verə bilməmişdi. İndi ermənilər bp ilə savaşamı çıxıblar?"

Bu arada ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi, səfir Anjey Kaspşikin mandatının daha bir il müddətinə uzadılması ironiya doğurur. ATƏT Daimi Şurasının iclasında polşalı diplomat 20-ci dəfə ATƏT sədrinin şəxsi nümayəndəsi təyin olunub. Hansı ki, bu vəzifəni 1997-ci ilin yanvarından icra edən A. Kaspşikin heç bir ciddi fəaliyyəti nəzərə çarpmayıb. "Ermənistan və Azərbaycan arasında təmas və sərhəd xəttində baş verən silahlı toqquşmalar narahatlıq doğurur". Bunu isə **ATƏT-in fəaliyyətdə olan sədri, Almaniyanın xarici işlər naziri Frank Valter Ştaynmayer** "The Huffington Post"da nəşr olunan "ATƏT Avropanın təhlükəsizliyi üçün niyə əvəzedilməzdir?" başlıqlı yazısında bildirib. (APA). Müəllif qeyd edib ki, Dnestryanı, Dağlıq Qarabağ kimi münaqişələr bütün ATƏT məkanında çətinliklərə və durğunluğa gətirib çıxarır: "Biz atəşkəsi stabilləşdirmək, etimad qurmaq, kiçik, lakin əməli nəticələri olan addımlar ataraq, eləcə də iqtisadi mübadilələri genişləndirərək insanların gündəlik həyatlarını inkişaf etdirmək istəyirik. Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, təmas və sərhəd xəttində baş verən silahlı toqquşmalar narahatlığa səbəb olur. Almaniya ATƏT-in Minsk Qrupunun himayəsi ilə danışıqların intensivləşdirilməsinin tərəfdarıdır. Bununla bağlı ən mühüm addımlardan biri atəşkəs rejiminin pozulması ilə bağlı mexanizmin yaradılmasıdır". Ştaynmayer ATƏT-ə sədrlik edən dövlət kimi Almaniyanın qurum çərçivəsində konsensusun gücləndirilməsi istiqamətində çalışacağını da diqqətə çatdırıb. Görünür, son vaxtlar rəsmi Bakının ATƏT-ə, Minsk Qrupu həmsədrlərinə qarşı kəskinləşən mövqeyi qurum rəhbərliyini "narahat olmağa" sövq edib. Ancaq bu, nəyi dəyişir ki? Beynəlxalq təşkilatlar 20 ildən çoxdur "narahatdır", ancaq bu narahatlığın fonunda erməni işğalı davam edir, işğalçılar ərazilərimizdə PKK və Suriya terrorçularını belə məskunlaşdırmaqda davam edirlər, qarşılığında hansısa sərt addım müşahidə edilmir.

Bu arada ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona səfər edəcəyi xəbəri yayılıb. Ermənistan XİN başçısı E.Nalbəndyan bu səfərin tezliklə baş tutacağını deyib. Azərbaycan XİN rəhbəri Elmar Məmmədyarov isə həmsədrləri qınayan mövqe sərgiləyib. Eyni zamanda Azərbaycan XİN həmsədr ölkələrə AŞ PA-dakı müdaxilələrinə görə etiraz edib. Bundan əvvəl ölkə prezidenti İlham Əliyev diplomatları AŞ PA sessiyasındakı müzakirələrlə bağlı tutduqları ədalətsiz mövqeyə görə sərt tənqid edib. Deməli, onların Bakıda xoş qarşılanmayacağı məlumdur.

**Z.Oruc da hesab edir ki, Avropa Şurasında yaşanan son hadisələr diplomatiya tarixi üçün çox utancverici səhnələr olduğundan ATƏT həmsədrlərinin regiona gözlənilən səfərini böyük xalq etirazları və siyasi boykot qərarı ilə qarşılamaq lazımdır:** "Onsuz da gizli dəhlizlərdə cərəyan edən sövdələşmələri və münaqişə vasitəsilə Azərbaycanı idarə etmək siyasətini hər zaman ağır bir şəkildə həyatımızda hiss etmişik. Lakin qoca Avropa demokratiyasına son hayqırı teatr pərdəsinin arxasında dayanan ssenaristləri tamam ifşa etdi və onların keçmişdəki statusla regiona gəlməsini zərbə altında qoydu. Parlament üzvlərinin mənsub olduqları ölkələrin məmurları və ümumiyyətlə hökumətlər tərəfindən belə total basqıya məruz qoyulması, müxtəlif maraq qruplarının millət vəkillərinin azadlığının buxovlanması siyasi mərkəzlərin gücünü deyil, AŞ PA-nın gerçək zəifliyini və əldə alət oldugunu növbəti dəfə təsdiqlədi". **Deputat qeyd etdi ki, "Minsk üçlüyü" son hərəkətləri ilə legitimliyini tamam itirdi və Qarabağ münaqişəsinin həlli missiyası ilə yaradılmış bir təşkilatın süqutuna sonuncu fərman oldu:** "İndi həmin diplomatlar xeyli deklorativ izahatlarla Azərbaycana gələrək yenidən xalqdan etimad istəyəcəklər və prezidentlərin görüşünün təşkili adı ilə növbəti dövrün əsarət planlarını icraya yönəltməyə çalışacaqlar. Ona görə də yeni həll planlarından daha çox Minsk Qrupundan xilas olmağın yollarını tapmalıyıq. Hazırda bölgədə yeni siyasi şərait formalaşır. İran aktiv bir şəkildə dünya siyasətinə qayıdır. Əvəzində Türkiyə ətrafında yeni geopolitik güc mərkəzinin qurulması üçün Qərbin Ərdoğanla müxtəlif layihələrinin işə düşdüyünü görə bilərik. Ona görə də Azərbaycanın iqtisadiyyatı yeni relslərə daşındığı kimi, Qarabağ prosesini də alternativ yollarla həllinə çalışmalıyıq. Minsk Qrupu işğalı əldə saxlayaraq varlığını sürdürdükcə, heç bir razılaşmaya gedilməyəcək. Rusiya və Amerika Qarabağ məsələsində razılaşa bilməzlər".

Xatırladaq ki, E.Məmmədyarov son açıqlamasında "Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Tələb edirik ki, Minsk Qrupu fəaliyyətini bu istiqamətdə qursun. Azərbaycanın torpaqları işğal altındadır. BMT TŞ-nin üç daimi üzvü Minsk Qrupuna rəhbərlik edir, lakin heç bir irəliləyiş olunmayıb. Həmsədrlərin Strasburqa ünvanladığı məktub çox gülüncdür. Mən Rusiya, Fransa və ABŞ xarici işlər nazirlərinə məktub ünvanlamışam və Bakının mövqeyini onların diqqətinə çatdırmışam. Azərbaycanın istənilən məsələni beynəlxalq arenada qaldırmaq kimi suveren hüququ var və heç kimin ölkənin suveren işlərinə qarışmaq haqqı yoxdur. Dağlıq Qarabağla bağlı hansı məsələni qaldırmaq istəyiriksə, bu bizim öz işimizdir. Buna müdaxilə edə bilməzlər. Onlar Avropa deputatlarına təzyiq göstərə bilməzlər. Bu məntiqsizlikdir", - deyib. Kifayət qədər sərt mövqedir, gözləyək, görək nazirə cavab nə olacaq..?

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 27 (6348) 5 fevral 2014



# İsa Qəmbərin təşkilatından böyük aksiyalar anonsu

## "Etiraz aksiyalarının böyüməsi an məsələsidir" qərarına gəlmək üçün hansı əsaslar var?

**Fevralın 6-da İsa Qəmbərin sədrlik etdiyi Milli Strateji Düşüncə Mərkəzi (MSDM) "Böhrandan çıxış yolu" mövzusunda dəyirmi masa keçirəcək. Bu barədə MSDM-dən verilən xəbərdə deyilir ki, tədbirdə MSDM-in cəmiyyətə təqdim etdiyi "Böhrandan imkana" adlı yol xəritəsi layihəsi müzakirə ediləcək. İctimai-siyasi xadimlərin, ziyalıların, ekspertlərin iştirakı ilə keçiriləcək tədbir mediaya və maraqlananlara açıq olacaq. Tədbir Müsavat Partiyasının mərkəzi qərargahında saat 15:00-da başlayacaq.**

MSDM-in yaydığı müraciətdə isə deyilir ki, dünya bazarında neftin qiymətinin davamlı şəkildə düşməsi korrupsiya, səriştəsizlik və bərbad idarəçiliyin girovuna çevrilmiş Azərbaycanda fəlakətli bir vəziyyət yaradıb: "İqtidar yarımçıq və ziddiyyətli addımları ilə əslində böhranın qarşısını almağa qadir olmadığını nümayiş etdirib. Beynəlxalq maliyyə mərkəzlərindən borc almaq cəhdləri də iqtidarın gücsüzlüyünün etirafıdır. Bu ilin yanvar ayında bölgələrdə keçirilən etirazlar Azərbaycan tarixində sosial-iqtisadi tələblərlə keçirilən ən yekcins, davamlı və sinxron kütləvi tədbirlər kimi dəyərləndirilməlidir. Etiraz aksiyalarının böyüməsi, sosial-iqtisadi narazılığın ictimai-siyasi gərginliyə çevrilməsi zaman məsələsidir. Xalq problemlərin həllinə ümid edir. Əks halda, etirazların daha kütləvi və qarşısıalınmaz olacağı qaçılmazdır".

**Müraciətdə sonra deyilir ki, MSDM böhrandan çıxa bilmək üçün cəmiyyətə yeni "'"Böhrandan İmkana Yol Xəritəsi" təklif edib:** ""Yol xəritəsi"nin əsas məqsədi əhalini böhrandan qorumaq, iş adamlarına azad iqtisadi fəaliyyət şansı yaratmaqdır. "Yol xəritəsi"ndə təcili sosial, iqtisadi və siyasi təkliflər əksini tapıb. Müəlliflər 2016-cı ilin fevralında yeni konstitusiya layihəsinin (və ya konstitusiyaya əlavə və dəyişikliklər) hazırlanması məqsədilə Azərbaycan Konstitusiya Komitəsi yaradılmasını, yazda bundan ötrü referendum keçirilməsini təklif edir. Bundan başqa, ilin ikinci yarısında parlament, 2017-ci ildə isə prezident seçkilərinin keçirilməsi ideyası irəli sürülür".

Müsavat Partiyası başqanının müavini Elman Fəttah MSDM-in müraciətindən bir cümləni özünün facebook səhifəsində xüsusi olaraq qeyd edib. "Etiraz aksiyalarının böyüməsi an məsələsidir" deyə qurumun mövqeyinə şərik çıxıb. Bəs hazırda cəmiyyətdə heç bir etiraz aksiyasının müşahidə olunmadığı, sakitliyin hökm sürdüyü vaxtda "Etiraz aksiyalarının böyüməsi an məsələsidir" qərarına gəlmək üçün hansı əsaslar var?

**Elman Fəttah bildirdi ki, əslində MSDM-in bəyanatında "etiraz aksiyalarının böyüməsi zaman məsələsidir" kimi yazılıb. Bu isə MSDM-in apardığı analizin nəticəsidir:** "Mən hesab edirəm ki, bu, düzgün analizdir. Belə bir nəticəyə gəlmək üçün əsaslar var. Ölkədə sosial-iqtisadi böhran gün-gündən daha kəskin xarakter alır, dərinlərə işləyir. Hökumət isə bu vəziyyətin düzəlməsi üçün real praktiki addımlar atmır. Cəmiyyətə söz yedirmək siyasəti işə salınıb. Aydın məsələdir ki, ölkədə böhranın aradan qalxması üçün real addımlar atılmayacağı halda xalqın acınacaqlı vəziyyətə sonsuza qədər dözüm nümayiş etdirməsi mümkün deyil. Hesab edirəm ki, MSDM də buna əsaslanaraq etiraz aksiyalarının böyüməsinin zaman məsələsi olduğunu xüsusi vurğulayıb".

❑ E.SEYİDAĞA

# Sabiq nazir gizli şəkildə Türkiyəyə köçüb

**Sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyev 2013-cü ilin payızında türmədən çıxdıqdan sonra Azərbaycanı tərk etdi. O, prezident İ.Əliyevin həmin ilin noyabrında Qurban Bayramı ərəfəsində imzaladığı əfv sərəncamı ilə azadlığa çıxdıqdan az sonra xaricə köçdü. Onun Almaniyadan siyasi sığınacaq alıb Londona yerləşdiyi, hazırda qardaşı Rafiq Əliyevlə Böyük Britaniyada yaşadığı deyilir.**



# Fərhad Əliyev Azərbaycanda qarışıqlıq hazırlayır - sensasion iddia

## Keçmiş iqtisadi inkişaf nazirinin yenidən hakimiyyət eşqinə düşdüyü haqda iddialar dolaşır; o, biznesinin əsas hissəsini qardaş ölkəyə transfer etdirib; AXCP ilə sıx işbirliyi içindədir; F.Əliyev Bakıdakı məxfi müttəfiqlərinə hər ay maliyyə dəstəyi verir, məqsəd...

Yalnız bir il əvvəl qardaşı Sudeif Əliyevin qəfil vəfatından sonra qısa müddətə Azərbaycana gələn Əliyev qardaşlarından bundan sonra heç bir xəbər çıxmayıb. Sanki Fərhad Əliyev gizli fəaliyyətə keçib. Görünən budur ki, F.Əliyev adının siyasi və mətbu dairələrdə hallanmasını qətiyyən istəmir.

Lakin onun son fəaliyyəti barədə musavat.com-a maraqlı məlumatlar daxil olub. Həmin məlumatlarda iddia olunur ki, Fərhad Əliyev bir müddətdir ki, Türkiyəyə köçüb. Onun biznesinin əhəmiyyətli hissəsini qardaş ölkəyə köçürdüyü də gələn məlumatlar sırasındadır. Mənbəmiz bildirir ki, keçmiş nazir hazırda Türkiyədə Ərdoğan iqtidarının himayəsi altındadır.

R.T.Ərdoğanla F.Əliyevin münasibətləri çox əvvələ gedib çıxır. Ərdoğan illər öncə siyasi nədənlərlə həbsdə yatarkən Azərbaycandan onu yüksək ranqlı məmur qismində Fərhad Əliyev ziyarət etmişdi. Həmçinin ailəsinə, yaxın çevrəsinə ciddi maddi dəstək verdiyinə dair hələ o vaxtlar iddialar dolaşırdı. Şübhəsiz, onun jesti özfəaliyyət ola bilməzdi. Görünür, o zamankı Azərbaycan iqtidarı uzaqgörənlik nümayiş etdirərək Türkiyə Cümhuriyyətinin yaxın zamanlarda iqtidarı olacaq bir siyasi qüvvənin liderinə ən ağır zamanında jest edib. F.Əliyev illər öncə etdiyi bu addımın bəhrəsini özü türmədə olarkən də gördü. İddialara görə, Fərhad Əliyevlə qardaşının həbsdən əfvlə çıxmasında AKP iqtidarının da israrlı xahişlərinin rolu olub.

Burda bir haşiyə çıxaraq bildirək ki, F.Əliyev həbsə yeni düşən vaxtlarda R.T.Ərdoğandan israrla yardım istəmişdi. O, həmin vaxtlar Türkiyə Cümhuriyyətinin baş naziri olan Ərdoğana ismarış yollayaraq onu türmədən azad etdirməsini xahiş etmişdi. 2005-2006-cı illərdə F.Əliyevə Azərbaycan iqtidarının qəzəbinin miqyası ölçüyəgəlməz olduğundan Ərdoğan tərəfindən bu təşəbbüs ya heç göstərilməyib, ya da rəsmi Bakı Ankaradan gələn xahişləri qulaqardına vurub. Yaxın keçmişdə buna bənzər daha bir nümunə olub. Fransa prezidenti ötən il həmkarı İlham Əliyevlə görüşdə ondan Leyla Yunusu azad etməsini xahiş etmişdi. Lakin İ.Əliyev fransalı həmkarının sözünü yerə salmalı olmuşdu. Sonradan Arif və Leyla Yunuslar hakimiyyətin əfvinə düşərək azad edildilər...

Belə çıxır ki, F.Əliyev təxminən 15 il öncəki puanlarını (xallarını) indi istifadə edir: o, Ərdoğan iqtidarının himayəsinə sığınaraq Türkiyəyə köçüb, orda özünə geniş biznes imkanları yaradıb. Əslində Türkiyə iqtidarının baxış açısından burada qəbahətli bir şey yoxdur. Qardaş Azərbaycandan zəngin bir şəxs *(Əliyev qardaşlarının 1 milyard dollara yaxın vəsaiti olması təxmin edilir)* Türkiyədə iş qurmaq, yeni iş yerləri açmaq istəyir. Üstəlik, həmin adam zamanında Türkiyənin indiki prezidenti ilə müəyyən dostluq münasibətlərində olub. Belə birisinə niyə "yox" deyilsin ki? Həm də, Fərhad Əliyev artıq Azərbaycan prezidentinin də əfvini qazanmış birisidir.

Lakin gələn məlumatlarda bir başqa istiqamət daha var. Belə məlum olur ki, Əliyev qardaşları başlarına gələndən dərs almayıblar və Türkiyəyə yalnız uyğun biznes məkanı olaraq gəlməyiblər. Mənbəmiz iddia edir ki, Fərhad Əliyev bütün işlərini qaydasına qoyduqdan sonra içindəki hakimiyyət eşqini yenidən sərbəst buraxıb.

Hər kəsə məlumdur ki, Əliyev qardaşları 2005-ci ilin oktyabrında Azərbaycana qarşı həyata keçirilən beynəlxalq avantüranın əsas aktyorları olublar. Fərhad Əliyev İlham Əliyevin saray çevrilişi vasitəsilə iqtidardan getməsi ssenarisində yer alıb. O zaman dəbdə olan "məxməri inqilab" vasitəsilə, müxalifətin də dəstəyi və iştirakı ilə ölkənin prezidenti olmağı hədəfləmişdi. Hakimiyyət içərisindən də kifayət qədər dəstək alan, bir sıra nazirləri də plana daxil edən Fərhad Əliyevin müxalifətin o zamanlar üçün çox effektli komponenti olan AXCP-dən də tam dəstəyi var idi. O, hakimiyyətdə təmsil olunduğu müddətdə siyasi rəhbərliyin tapşırığı və razılığı ilə AXCP-nin Əli Kərimli qanadına gizli şəkildə maliyyə dəstəyi verib, onun Elçibəylə İsa Qəmbərin arasına girməsi, bu iki liderin bir araya gəlməməsi layihəsində böyüməsini, güclənməsini təmin etmişdi...

2005-ci ildə Fərhad Əliyev bu köhnə kommunikasıyanı sırf özünə çalışdırmağa başlamışdı - öz komandasına və prezidentinə xəyanət yolu tutaraq, beynəlxalq avantürada yer almışdı...

Plan pozuldu, İlham Əliyev ölkəsini və iqtidarını beynəlxalq avantüradan qoruya bildi; bir neçə nazir həbs olundu, onların da içərisində "məxməri inqilabın nisgilli prezidenti" Fərhad Əliyev...

Həbsdə olduğu müddətdə də müxalifətlə, xüsusilə AXCP ilə əlaqəsini kəsməyən, professor Cəmil Həsənli vasitəsilə (hazırda Rusiya yapımlı Milli Şuranın sədridir) siyasətdə öz gələcək iddialarını qoruyan Fərhad Əliyev içindəki ən böyük arzusuna - Azərbaycan prezidenti olmaq - yenidən start verib.

9 il türmə yatan, xeyli mal-mülkünü, üstəlik, vəzifəsini itirən F.Əliyev, görünür, 1-ci ost sevdasından heç cür əl çəkə bilmir. Ondakı iqtidar hərisliyi, mənəm-mənəmlik hissi özünü daim büruzə verib. Hələ 2005-ci ilin yazında televiziyadan pafoslu bəyanat verərək demişdi ki, onu xalq seçib, xalqa xidmət edir və s. Sonradan nazir həmkarlarından biri onu başa salmağa çalışmışdı ki, nazir vəzifəsi təyinatla olur, ona görə də xalqın adından danışmaq hüququn yoxdu. Lakin həmin dövrdə F.Əliyev o qədər siyasi sürət götürmüşdü ki, bu cür tövsiyələri eşitməyəcək haldaydı. Bir yandan da ABŞ-ın bəzi diplomatları onu qaza gətirirdilər. Görüşlərdə "Azərbaycanın yaxın zamanlardakı prezidenti sizsiniz, cənab Əliyev" deyərək gənc nazirimizi yerindən-yurdundan edirdilər. Düzdür, Azərbaycanın prezidenti Əliyev oldu, amma o soyadın önündəki isim Fərhad olmadı...

İddialar və məlumatlara əsasən deyə bilərik ki, Azərbaycanda və regionda gedən proseslər sabiq naziri yenidən şirnikləndirib. Ciddi mənbələr bildirir ki, F.Əliyev Bakıdakı müttəfiqləri ilə əlaqələri intensivləşdirib. Onun qədim müttəfiqi də çoxlarının bildiyi kimi, Milli Şuranın sədri Cəmil Həsənlidir. F.Əliyev cəza evində yatarkən C.Həsənli onun hüquqlarının müdafiəsi komitəsinin sədri olub. Onların arasında həmkəndlilik və qohumluq əlaqələri də var. Məlumatlara görə, F.Əliyev C.Həsənli üzərindən hazırda dağınıq və perspektivsiz durumda olan müxalifətlə - konkret yazsaq, AXCP ilə də iş aparır. Bu gizli ittifaqın Azərbaycanda qarışıqlıq yaratmaq, hazırkı iqtisadi vəziyyətin yaratdığı sosial gərginliyi siyasi xaosa çevirmək planlarının olduğu də istisna edilmir.

İstisna edilməyən bir şey də odur ki, Milli Şura rəhbərliyi vaxtaşırı Fərhad Əliyevdən babat maliyyə dəstəyi alır. Söhbət bir neçə on min dollardan gedir. Düzdür, bu pulla inqilab etmək mümkün deyil, amma Cəmil Həsənli ilə Əli Kərimlinin əla yaşamasına, sıxıntısız həyat sürmələrinə bəs edəcək qədərdir.

MŞ-nin, AXCP-nin əsas ruporu olan "Azadlıq" qəzetinin əməkdaşlarının aylardır maaş üzünə həsrət qaldığı, sıxıntıda olduğu, sıravi cəbhəçilərin gündəlik çörəkpulu tapmadığı indiki şəraitdə 3-4 nəfər siyasi dəllalın Fərhad Əliyev kimi avantüristdən para çəkib kef sürmələri kənardan olduqca "maraqlı" görünür.

Cəbhə düşərgəsinin öndə gələn isimləri belə şeylərə bir növ adətkardır...

❑ Aydın ASLAN

**Devalvasiya bir çox sahələr kimi çap mediasında və nəşriyyat işində də problemlər yaratdı. Dollarla bərabər kağız və çap materialları da bahalaşdı. Hökumətin ölkəyə gətirilən kağıza və kitablara ƏDV tətbiq etməsi çap xərclərini də ikiqat artırdı. Azərbaycanın ən populyar nəşriyyatlarından biri olan "Qanun" nəşriyyatı isə ölkədəki bahalaşma tendensiyasının əksinə addım ataraq kitablara 70 faiz endirim kampaniyası elan edərək vəziyyəti müsbətə doğru dəyişməyə çalışdı.**

# "Yapon ildə 26 kitab, bizdə 3 min adam ildə 1 kitab oxuyur"

## Şahbaz Xuduoğlu: "İmkan verilsə, yeni kitablar nəşr etmək istəyirik"

*"Yeni Müsavat" "Qanun" nəşriyyatının rəhbəri Şahbaz Xuduoğlu ilə vəziyyəti dəyərləndirməyə çalışıb.*

***- Şahbaz bəy, devalvasiya şəraitində bir nəşriyyatçı olaraq özünüzü necə hiss edirsiniz?***

- Devalvasiya olan günü bütün kollektivi topladım, böhran haqqında söhbət etdik. Kitablarda oxuduğum bəzi böhran səhnələrindən, 90-cı illərdə çörək və ərzaq qıtlığından danışdım, ölkədə "Qanun"un yeri və hər bir əməkdaşın "Qanun"da yerini dəyərləndirərək gözlənilməz itkilərə hazır olmağı tövsiyə etdim. Əsas məqsədim gözlənilən təhlükənin mahiyyətini çatdırmaq idi. Nə qədər ki, Rusiya çökür bizi də arxasınca aparacaq. Böyük gəmilər batanda yaratdığı çökək qayıqları da dartıb aparacaq. Mən bütün vəziyyətlərdə nəbzin güclü və inamlı döyünməsini özümə təlqin edirəm. İnsan özünü işindən asılı edə bilər, amma pulundan, var-dövlətindən asılı edə bilməz. Var-dövlətindən asılan adamlar mütləq boğulacaqlar. Mən ölkəmizdə kitabı həyatımıza qaytaran bir nəşriyyat rəhbəri kimi ilk zərbəni özümdə hiss etdim və düşündüm ki, böhrandan keçməyin yolu mənəvi dəyərləri qaytarmaqdır. Bu dəyərləri qaytarmağın bir yolu var: mədəniyyət və kitab. İnsanlığın əldə etdiyi nə qədər uğur varsa, onların hamısının açarı kitablardadır. Bir naşir kimi mənim fikrim belədir: ölkə çökürsə, mədəniyyət insanlarımızı xilas etməlidir.

***- Nəşriyyatın və sizin fəaliyyətinizdə hansı çətinliklər var?***

- Bizim hesablarımız 3 ildir bağlıdır. Xarici yayımçılara borclarımız çoxdur. Bəzi uşaq kitablarımız, rəngli və keyfiyyətli nəşrlərimizi xaricdə çap edirdik. Əlbəttə, hesablaşmalar ABŞ dolları ilə aparılırdı. Manatın dəyərdən düşməsi bizi çox böyük borca saldı.

***- Kağızın və çap xərclərinin bahalaşması kitabların da maya dəyərini artırıb, lakin siz 70 faizlik endirim kampaniyası etmisiniz. Bu, çarəsizlikdir, yoxsa iqtisadi manevr?***

- Niyə siz bu məsələyə manevr, yaxud çarəsizlik kimi yanaşırsınız? Mən gördüm ki, hər kəs vəziyyətdən çıxış yolunu qiyməti artırmaqda görür. Əks yolu heç kəs görmək istəmir. Buna görə qiyməti ucuzlaşdırdıq. Daha geniş təbəqəyə xitab etmək istəyirik. Daha geniş təbəqə isə imkanı aşağı olanlardır. Amma ən etibarlı kitab oxuyucusu da elə onlardır. Siz görmüşünüz ki, bir nazir kitab oxusun, yaxud hansısa kitab haqqında danışsın? Əlbəttə yox... Bizə görə metroda kitab oxuya-oxuya gedən sərnişin, bahalı avtomobilində Aygünü, Nazpərini, Ağadadaşı dinləyənlərdən daha üstündür. Əgər onların imkanı azalırsa, deməli, onlara uyğun hərəkət etməliyik.

***- Kitab və kağız idxalına ƏDV-nin tətbiqi işinizə necə təsir etdi?***

- Əslində kitab satışına 18% ƏDV əvvəldən var idi, 2016-cı il yanvarın 1-dən yeni bir vergi də kitab üzərinə əlavə olundu. Bu vaxta qədər xaricdən gətirilən kitablar, eləcə də xaricdə çap olunan kitablar gömrükdə ƏDV ödəmirdi. İndi isə həm xaricdən gətirdikdə, həm də burda satdıqda 18 faiz ödəməlisən. Elə ölkələr var ki, onlar, ümumiyyətlə, kitabı bütün vergilərdən azad edib. Elə götürək qonşu Gürcüstanı, həm kağızı, həm də kitabı bütün növ vergilərdən azad edib, məhz buna görə kitab nəşrində bizdən xeyli irəlidədir. Təsəvvür edin, 6 milyon Gürcüstan Harri Potterin kitablarını 50 min nüsxə ilə çap edir, biz isə 1000 ədəd. Fərqi görürsüz? 15 gün olar yeni kitab partiyası xaricdən gəlib və biz ƏDV-nin yaratdığı problemə görə gömrükdən keçə bilmirik. Prezident hər kəsi islahata səsləyir, idarələri sahibkarlara dəstək verməyə çağırır. Hara gediriksə antiislahat tədbirləri ilə üzləşirik. Neçə il idi ki, xaricdən gələn kitablara ƏDV tətbiq olunmurdu, devalvasiya oldu və dərhal vergini tətbiq etdilər. Qəzet kağızının üzərinə ƏDV gəldilər. Niyə məhz indi? Əgər məqsəd büdcəni doldurmaqdırsa, onda məhdud tirajlı kitab, yaxud qəzetə ƏDV əlavə etməklə buna nail ola bilməzlər.



**"Ölkə çökürsə, mədəniyyət insanlarımızı xilas etməlidir"**

***- Ölkədə kitaba olan münasibətdən narazısız...***

- Əgər ortalama bir yapon ildə 26 kitab, isveçli ildə 10, fransız 7 kitab oxuyursa, bizdə 3 min adam ildə 1 kitab oxuyur. Əlavə şərhə gərək görmürəm.

***- Azərbaycanda nəşriyyat işi ilə məşğul olmaq nə qədər çətindir?***

- Çətindir deyəndə, hamı sənə ilişir. Vergi yoxlamaya da, oğru seyf oğurlamağa da sənə gələr. Ölkədə islahatlar başlayanda bütün sahələrdə şəraiti yaxşılaşdırmaq üçün qanunlar qəbul olunur. Bizim sahədə də qanunlar qəbul edildi, amma vəziyyəti pisləşdirmək üçün. DİN toplantı keçirir, cinayətlərin açılma faizinin yüksək olduğunu deyir, amma bizimlə bağlı baş verən heç bir cinayətin üstü açılmır. Bildiyiniz kimi, sentyabrın 26-da "Qanun" nəşriyyatının seyfi oğurlanıb. Nəsimi rayon 21-ci polis bölməsi cinayətin üstünü aça bilmədi. Mənə elə gəlir ki, açmaq istəmədi. Cənab nazir Ramil Usubova elektron müraciət etdim. Bir həftə sonra Tamerlan adlı şəxs zəng etdi ki, sizin müraciət bizdədir, yaxın vaxtlarda nazirə məruzə olunacaq. Yenə bir həftə keçdi, Tamerlan adlı şəxs dedi ki, nazir müavini Vilayət Eyvazovun poçtuna qoymuşuq, az vaxta sizə cavab veriləcək. Yenə bir həftə keçdi, yenə Tamerlana zəng etdim. O nömrədən bir xanım cavab verdi. Qəbul nömrəsinə əsasən məktubu araşdırmaya başladı. Dedi ki, görürəm mobildən zəng etmisiniz, məktubu tapım, özüm sizi yığacağam. Təbii ki, o xanım mənə zəng etmədi, o gün və ondan sonrakı günlərdə o nömrə mənə cavab vermədi.

***- Ötən il sizin nəşriyyatın bestselleri hansı kitablar oldu?***

- Bizim rəqəmlərə görə bədii və fərdi inkişaf kitabları çox satılır. Sahə kitabları yox kimidir. Bədii ədəbiyyatda da əyləncə və detektiv əsərlər üstünlük təşkil edir.

***- Gələcək planlarınız nədir? "Qanun"dan hansı yenilikləri gözləyək?***

- İmkan verilsə, yeni kitablar nəşr etmək istəyirik.

❑ **Nərgiz LİFTİYEVA**

# Mənzil bazarında qiymətlər qismən artıb

## Ekspertlər əksər alıcıların gözləmə mövqeyində olduğunu bildirirlər, çünki...



**Ölkənin mənzil bazarında durğunluqdur. Ekspert Rəşad Əliyevin sözlərinə görə, əgər daşınmaz əmlak bazarında mövcud olan qiymətləri nəzərdən keçirsək, son il yarımda dollarla olan qiymətlərin ancaq birtərəfli qaydada enişini müşahidə edirik: "Dekabr devalvasiyasından öncə fevral devalvasiyasından bir qədər fərqli vəziyyət yaranmışdı. Bazarda satılan əmlakların əksər hissəsinin qiyməti manatla, az hissəsininki isə dollarla göstərilirdi. Bundan əlavə, dekabr devalvasiyasından sonra əlavə olaraq manat cüzi dəyərsizləşməyə məruz qalmışdı".**

Ekspertin sözlərinə görə, bazarda dekabr devalvasiyasının nəticəsi olaraq seqmentlər üzrə təklif qiymətlərinin valyutasından asılı olaraq fərqli proseslər baş verdi: "Qiymətləri dollarla müəyyən edilən manat ifadəsində göstərilən əmlakların qiymətlərinin bir hissəsi dollarla aşağı salındı, bir hissəsi isə eyni qaldı. Məsələn, araşdırma zamanı elə elanlara rast gəlmişik ki, dekabr devalvasiyasından əvvəl yerləşdirilib. Satıcı ilə əlaqə yaradanda məlum olur ki, qiymət tam fərqlidir. Çünki həmin elanda qiymət manatla göstərilsə də, müştəri onu müəyyənləşdirəndə dolların məzənnəsinə istinad edib. İndi əlaqə yaradanda isə qiyməti ya yeni məzənnə, yaxud da elə dollarla deyir. Buna görə də ümumilikdə bazarı nəzərdən keçirdikdə, sözsüz ki, dekabr devalvasiyasının təsiri altında qiymətlər qismən artıb. Ancaq ən çox maraqlandıran cari vəziyyət yox, gələcəkdə hadisələrin necə cərəyan edəcəyidir.

Bazarda dollarla olan qiymətlərlə bağlı biz əvvəldə demişdik ki, hər şey makroiqtisadi şəraitdən asılı olacaq. Bu şərait isə neftin uzunmüddətli qiymətlərindən asılı olacaq. Daşınmaz əmlak bazarına təsir bizdə bir qədər gec çatır. Yenə də hesab edirik ki, bazarda mövcud olan qiymətlər hələ də makroiqtisadi şəraitə adekvat deyil. Bu isə deməkdir ki, mövcud şəraitin realliqları qiymətlərdə hələ də tam olaraq əks olunmayıb. Makroiqtisadi şərait dedikdə, bir çoxları bunu ancaq əhalinin alıcılıq qabiliyyəti ilə bağlayır. Bu doğrudur, ancaq tam olaraq bununla əlaqələndirmək yanlışlıqdır. Alıcıların gözləmə mövqeyində olması da faktdır, ancaq baxır söhbət hansı alıcılardan gedir. İnvestor alıcılar daşınmaz əmlaka kapital yerləşdirilməsi nöqteyi-nəzərindən baxırlar. Onların bir hissəsi alış üçün qiymətlərin daha da enməsini, digər bir hissəsi isə iqtisadi şəraitin yaxşılaşması siqnallarını gözləyirlər. İkincilər daha doğru strategiya seçiblər".

Ekspertlər bildirirlər ki, tezliklə ev bazarındakı təsir özünü daha qabarıq şəkildə büruzə verəcək. Mənzil bazarında ucuzlaşma daha aktualdır. "MBA Group" Konsaltinq Şirkətinin hesablamasına görə, 2015-ci ilin dekabrında Bakıda ilkin yaşayış mənzillərinin bir kvadratmetrinin orta təklif qiyməti 1,03 faiz azalaraq 958 dollara qədər ucuzlaşıb. Ekspertlər bildirirlər ki, fevralda mənzil bazarında ciddi dəyişikliklər baş verəcək. Belə ki, mənzil və ya obyektlərin dollarla satışa çıxarılacağı gözlənilir.

**Ekspert Ramil Osmanlının sözlərinə görə, manatın ikinci devalvasiyasından dərhal sonra qiymətlər artırılıb. Lakin bahalaşma cəmi bir neçə gün davam edib:** "Hazırda mənzil bazarında durğunluq yaranıb. Hətta dəyərindən aşağı qiymətlə təklif edilən mənzillər də satılmır. Aparılan müşahidələrə görə, gələn aydan mənzil bazarında ciddi dəyişikliklər olacaq. Əhalinin manata etibarı azaldığı üçün 2007-2008-ci ildə olduğu kimi mənzillər dollarla təklif olunacaq. Hazırda yalnız yeni tikililərdə cüzi qiymət artımı müşahidə edilir. Köhnə tikililərdə isə mənzillər bahalaşmayıb. Ötən ilin əvvəlinə nisbətən qiymətlər ucuz olsa da, alqı-satqı yoxdur. Son bir neçə ildə mənzil bazarında indiki kimi durğunluq müşahidə edilməyib".

Qeyd edək ki, ekspertlər də ev bazarındakı qiymətlərlə bağlı vahid fikrə gələ bilmirlər: proqnozlar təzadlıdır. Bəzi ekspertlər mənzil bazarında canlanmanın olacağını və qiymətlərin bahalaşacağını ehtimal etsələr də, əksəriyyət yaxın aylarda qiymət enməsinin müşahidə ediləcəyini vurğulayıb.

**Daşınmaz əmlak üzrə ekspert Nüsrət İbrahimovun sözlərinə görə, manatın dəyərdən düşməsi və dolların bahalaşması ilə əlaqədar evlərin də qiyməti artacaq:** "Tikinti materiallarının qiymətləri də qalxır. Materiallar bahalaşdıqca da evlərin qiyməti qalxacaq".

Bəzi ekspertlər qeyd edirlər ki, 2016-cı ildə daşınmaz əmlak bazarında qiymətlərə təsir edəcək amillərin sayı o qədər olacaq ki, konkret proqnozun verilməsi çətinlik yaradır. Bəzi ekspertlər qiymətlərin kəskin ucuzlaşacağını da proqnozlaşdırırlar. İlin sonunda daşınmaz əmlak bazarında qiymətlər indiki qiymətlərdən ən yaxşı halda 25-30 faiz, optimal halda isə iki dəfə aşağı olacaq.

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 27 (6348) 5 fevral 2016



# Cəlal Əliyevin deputat həmkarları onu necə xatırlayırlar?

**Keçmiş deputat, akademik, ölkə başçısının əmisi Cəlal Əliyevin ölümündən sonra onunla bağlı xatirələr hər keçən gün aktuallığını daha da artırır. Xüsusilə onunla birlikdə çalışmış tanınmış simaların fikirləri cəmiyyət üçün daha maraqlıdır.**

Parlamentdəki çıxışları ilə daima gündəmdə olan C.Əliyev ölümü ilə də gündəmi zəbt etdi. Akademiklə birlikdə uzun müddət parlamentdə təmsil olunmuş şəxslərin onunla bağlı xatirələrini aldıq.

**VHP sədri, sabiq deputat Sabir Rüstəmxanlı C.Əliyevin ölkəmizdə tanınmış bioloq alimlərdən biri olduğunu söylədi:** "Allah rəhmət eləsin. Azərbaycanda taxılçılığın inkişafında böyük rolu olub. Yeni toxum növləri yaratmışdı. Özü şəxsən bu işlərlə məşğul idi. Onunla Milli Məclisdən əvvəl bir çox görüşlərimiz olub. O, elmi işləri barədə geniş məlumat verirdi. Öz işi haqqında danışmağı xoşlayırdı. Elmi fəaliyyətini təbliğ etməyi bacaran şəxs idi. Maraqlı həmsöhbət idi. O günlər yaddaşımda çox yaxşı qalıb. Mərhum Heydər Əliyev ölkəyə gələndə onun evində qalırdı. Cəlal Əliyev Milli Məclisdə əsəbi, müxalifətə qarşı dözümsüz şəxs idi. Mənə qarşı çox-çox əvvəldən münasibəti olduğuna görə, çox istiqanlı idi. Münasibətlərimiz daim normal olub. İndi haqq dünyasındadır. Onun Yeni Azərbaycan Partiyasındakı xidmətləri barədə danışmaq istəmirəm. Açığı, dünyasını dəyişən bir insanın bu şəkildə müzakirə olunmasının tərəfdarı deyiləm. Hər halda, böyük alimlərimizdən biri dünyasını dəyişib. Onun haqqında ən çox yadımda bu qalıb ki, mərhum Heydər Əliyev deyirdi ki, onun öhdəsindən mən gələ bilmirəm. Möhkəm xarakteri, hadisələrə şəxsi baxışı olan bir şəxs idi".



## Şahlar Əsgərov: "Məğrur yerişi, sərt danışığı var idi"



## Maksim Musayev: "Onun barəsində Azərbaycanda 1-2 nəfər bilər..."

**"91-lər"in üzvü, parlamentin Təhsil komitəsinin keçmiş sədri Şahlar Əsgərov mərhum akademiki iki istiqamətdə daim xatırlayacağını söylədi:** "Cəlal müəllim görkəmli alim idi. Azərbaycan elmini iki hissəyə bölürəm. Vətənə və ümumbəşəri elmə xeyir verən elm. Cəlal müəllimin elminin xalqımıza birbaşa dəxli var idi. Mənim üçün çox qiymətli alim idi. O, buğda sortları yetişdirirdi. Çalışırdı ki, Azərbaycanda davamlı buğda sortları olsun. Böyük məktəb yaratdı. Ölkəmizdə məktəbi olan alimlər çox azdır. Cəlal müəllim məktəbi olan alim idi. Onun tələbələri Azərbaycanda çoxdur. Ölkəmizdən kənarlarda da rast gəlmək olar. Elm sərhəd bilmir. Cəlal müəllim elmdə yeniliyin tərəfdarı idi. XXI əsrdə bioriyaziyyat elmi dünyada əsas elmlərdən biri olacaq. Bunu alimlər deyirlər. Azərbaycanda bu elmin əsasını Cəlal müəllim qoydu. Özü də biologiya sahəsində. Riyaziyyatı bu elmə tətbiq etməklə. Bu onun elmi duyumunun nəcə yüksək olduğunu göstərir. Onunla 10 il birlikdə elm və təhsil komissiyasında fəaliyyət göstərdik. Ondan sonra Cəlal müəllim bir dönəm də deputat oldu. Onun çox məğrur yerişi, sərt danışığı var idi. Amma baxışı çox mülayim idi. O, özündən kiçik insanların səhvini tez bağışlayırdı. Kin saxlamırdı. Allah rəhmət eləsin".

**"91"lərin digər üzvü, sabiq deputat Maksim Musayev C.Əliyevi 1964-cü ildən tanıdığını açıqladı:** "Leninqradda oxuduğum illərdə məni Azərbaycana praktika göndərdilər. Pirşağıda Əkinçilik İnstitutu var idi. Orada Cəlal Əliyevi tanıdım. Toxumçuluğu mükəmməl bilirdi. Onun yanına o vaxtlar tez-tez gedirdim. Məni həmişə qəbul edə bilmirdi. Çünki işləri çox olurdu. Onun yanında Elyanora Kazıbəyova adlı çox savadlı elmi işçi var idi. O, sonradan Cəlal müəllimin həyat yoldaşı oldu. Sonralar bundan xəbər tutdum. Kazıbəyova çox istedadlı, qabiliyyətli idi. Leninqradda çox alim tanıyırdım, amma o xanım kimisi az idi. Hədsiz dərəcədə mədəni, hörmətcil qadın idi. Yeni Azərbaycan Partiyasını yaradanda evlərində oldum. Onların ailə münasibətləri mənə xoş oldu. Cəlal müəllim sözünü deyən şəxs idi. O, birdən elə nərə çəkirdi ki, institutda olan rəhbərlər səsini eşidirdilər. İşçilər işə gəlməyəndə çox əsəbləşirdi. Sonralar onun Heydər Əliyevin qardaşı olduğunu bildim. Onun yanında aqrotexniklər işləyirdi. Onlara qarşı tələbkar idi. Cəlal müəllimin sayəsində yüksək vəzifələr tutdular. Hazırda Azərbaycanda məşhur şəxslərdir. Adlarını çəkmək istəmirəm".

**Sabiq deputat mərhum həmkarının deputatlıq dövründən də danışdı:** "Onun deputatlıq dövründən saatlarla danışa bilərəm. O çalışırdı ki, mənə zərbə dəyməsin. Daim məni qoruyurdu. Onun fəaliyyəti barədə saatlarla danışsam azdır. Onun barəsində deyəcəklərimi, bildiklərimi Azərbaycanda 1-2 nəfər bələ bilər. Çox cəsarətli hərəkətlər edirdi. Vəzirovun zamanında mətbuatda sərt danışmağa qadağalar qoyulmuşdu. Həmin vaxt Cəlal müəllimin mətbuatda sərt məqalələri çıxırdı. Bəzən redaksiyalar onun yazılarını dərc etməkdən çəkinirdilər. Onun cəsarəti barədə çoxsaylı faktlar bilirəm".

Qeyd edək ki, Cəlal Əliyev yanvarın 31-də uzun sürən xəstəlikdən sonra 88 yaşında dünyasını dəyişib.

❑ **Cavanşir ABBASLI**

# Sabiq maliyyə naziri yeni vəzifəsindən danışdı



Əvəz Ələkbərov

**Sabiq maliyyə naziri Əvəz Ələkbərova yeni vəzifə verilib. Sabiq nazir yeni vəzifəsi ilə bağlı modern.az saytının suallarını cavablandırıb.**

***- Əvəz müəllim, yeni vəzifədə işə başladığınız doğrudurmu?***

- Bəli, doğrudur. Təhsil bizim gələcəyimizdir. Bu sahənin inkişaf perspektivimiz üçün yaxşı təminat deməkdir. Pratika, təhsil və elmin birgə nəticələri daha böyük effekt verir. Cənab prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə böyük islahatlar gedir. Həm də təhsildə yeni, müasir idarəçilik sistemi yaranır.

Bu işlərdə biliyimi, bacarığımı tələbələrə çatdıra bilərəmsə, bu, çox gözəl olar. Həm də müəllim sözü xalqımız tərəfindən həmişə böyük iftixarla qiymətləndirilib.

***- Bilmək olarmı, yeni işiniz nədən ibarətdir?***

- Azərbaycan Dövlət İqtisad Universiteti mənim məzun olduğum ali məktəb ocağıdır. Həm də adını çəkdiyim universitetlə, görkəmli alimlərlə daim əlaqələr qurmuşam. Həmçinin 2008-ci ildə iqtisad elmləri doktoru adı almaq üçün dissertasiya müdafiə etmişəm. 40-dan çox elmi əsərin, bir neçə monoqrafiyanın müəllifiyəm. Yeni işimin nədən ibarət olmasına gəlincə, deyə bilərəm ki, Azərbaycan Dövlət İqtisad Universitetində kafedra müdiri vəzifəsini icra edəcəm. Təhsil Nazirliyi və universitet rəhbərliyi tərəfindən bu işə dəvət olundum. 3 kafedra- maliyyə, vergi və vergiqoyma, bank işi kafedraları birləşdirilərək, Maliyyə və maliyyə institutları kafedrası yaradılıb.

Mən də bu təklifi qəbul etdim. Kafedrada 11 elmlər doktoru və 33 elmlər namizədi fəaliyyət göstərir. 60-dan çox əməkdaşımız var.

Əvəz Ələkbərov 1991-ci ilin dekabrından 1992-ci ilin oktyabrına kimi Azərbaycan Respublikası Pensiya Fondu İdarə Heyətinin sədri işləyib. 1992-ci ilin oktyabrından 1999-cu ilin iyuluna qədər Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri vəzifəsində çalışıb. 1999-cu ilin iyulundan 2006-cı ilin aprelinə kimi maliyyə naziri olub. 2000-ci ildən 2013-cü ilin iyununa qədər Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü olub. Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının İdarə Heyətinin üzvüdür.

# Qərb maddi dəstək əvəzində Bakıdan nə istəyəcək?

## Sərdar Cəlaloğlu: "Bu dəstəyi Azərbaycana elə-belə verməyəcək"



Sərdar Cəlaloğlu

**ABŞ Konqresinin Helsinki Komissiyasının sədri Kristofer Smitin ötən ilin dekabrında hazırladığı və Komissiyada qəbul edilən "Qanunun Aliliyi və İnsan Haqları naminə Azərbaycan Demokratiya aktı" adlı sənədin Konqresin müzakirəsinə çıxarılmayacağı ehtimalı getdikcə artır.**

Bir çox siyasi təhlilçilər hesab edir ki, Azərbaycana və onun hakimiyyətinə qarşı ciddi sanksiyaların nəzərdə tutulduğu böyük ajiotaja səbəb olmuş layihənin ortaya atılmasının arxasında rəsmi Bakı ilə siyasi məhbuslar və demokratiya üzərindən hansısa razılaşmalar dayandığı istisna deyil.

Müxalifətdə olan Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu isə bu iddiaları bölüşmür. Onun sözlərinə görə, artıq ABŞ-ın Azərbaycanla bazarlığa getməsi dövrü arxada qalıb. Əvvəllər bazarlığa getmək üçün əsaslar mövcud idi. Neft və qaz amili, İranla bağlı geopolitik maraqlar bazarlıq üçün əsaslarıydı. İndiki halda dünya bazarında neftin qiymətinin dəfələrlə aşağı düşməsi neft amilini aradan qaldırır: "Azərbaycanın neftinə, qazına maraq əvvəlki illərdəkindən qat-qat aşağıdır. İran artıq Qərblə dil tapdığı üçün Azərbaycanın həm neft, qaz məsələsində, həm də geopolitik məsələdə Qərb üçün əhəmiyyətini xeyli dərəcədə azaldıb. Ona görə də ABŞ-ın sanksiya layihəsini ortaya atıb Azərbaycanla bazarlıq elədiyi barədə deyilənlər inandırıcı deyil. Qeyd etdiyimiz faktorları nəzərə alsaq görərik ki, artıq Azərbaycanın bazarlıq eləmək üçün əlində əvvəlki kimi malı yoxdur. Nə əvvəlki kimi iqtisadi maraqlar, nə də geopolitik maraqlar Azərbaycana manevr imkanı vermir".

ADP sədri bildirdi ki, son zamanlar Qərbin Bakıya münasibətinin müəyyən qədər yumşalması, ABŞ Konqresinə təqdim olunan məlum layihənin hələ müzakirəyə çıxarılmaması ola bilsin Azərbaycanın hökumətinin də demokratiya, siyasi məhbuslarla bağlı Qərbin bəzi şərtlərini qəbul etməsi ilə bağlıdır: "Zatən Azərbaycanın iqtisadi böhrandan da çıxmasının yeganə şərti Qərbin, Avropanın dəstəyini almaqdır. Bu dəstəyi də Azərbaycana elə-belə verməyəcək. Çox güman ki, bunun əvəzində Azərbaycandan bir sıra şərtləri yerinə yetirmək istəniləcək. Bu şərtlərə demokratiya da daxildir. Həmişə ABŞ-ın Azərbaycana münasibətində üç prioritet var idi-enerji, təhlükəsizlik və demokratiya. Birinci və ikinci prioritetlər yuxarıda qeyd etdiyim səbəblər üzündən əhəmiyyətini xeyli dərəcədə itirdiyi üçün illər uzunu üçüncü dərəcəli olan prioritet-demokratiya Qərb üçün birinci dərəcəli marağa çevrilir və çevriləcək. Qərb artıq fərqindədir ki, illər uzunu bir çox ölkələrə münasibətdə demokratiya marağının neft və təhlükəsizlik maraqlarından sonraya keçirilməsi birini və ikinci sıraya daxil edilən maraqların özünü ciddi təhlükəyə salır. Ona görə də demokratiya prioritetlər sırasında önə çıxarılacaq".

❑ **Etibar SEYİDAĞA**




# Gürcü baş nazirin müavininin qəfil Bakı səfərinin pərdəarxası

## Bölgə və onun ətrafında təhlükəli vəziyyət iki strateji tərəfdaşı daha sinxron siyasət yürütmək zorunda qoyur; gürcü rəsmisi: "Rusiyaya ümid edib, özümüzü yenidən enerji blokadasına sala bilmərik..."

**Dünən Gürcüstanın baş nazirinin müavini və energetika naziri Kaxa Kaladze qəfildən Bakıya işgüzar səfər edib. Bu barədə məlumat yayan nazirliyin mətbuat xidmətinə görə, səfər çərçivəsində o, SOCAR rəhbəri Rövnəq Abdullayevlə görüşməli, "cari problemlər və əlaqələrin perspektivi müzakirə olunmalı" idi.**

Yada salaq ki, az öncə Rövnəq Abdullayev Tiflisdə olmuş, burada Gürcüstan hökumətinin rəsmiləri ilə danışıqlar aparmışdı. Lakin yayılan informasiyalara görə, tərəflər anlaşma əldə edə bilməmişdilər. Söhbət "Qazprom"la müəmmalı qaz danışıqları fonunda və Tiflisin öz qaz mənbələrini şaxələndirməsi və guya Azərbaycanın qaz təchizatının yetərli olmaması kontekstində ölkəmizin qonşu dövlətin enerji bazarında sıxışdırılması cəhdlərindən gedir.

Bir daha yada salaq ki, Gürcüstanın əsas təbii qaz təchizatçısı Azərbaycandır. Bundan əlavə, qonşu ölkə Rusiyadan işğalçı Ermənistana gedən qaz kəməri üçün tranzit haqqı olaraq bu qazın 12% həcmində mavi yanacaq alır. Ölkə 2007-ci ildən Rusiya qazı almır. Energetika nazirinin sözlərinə görə, "Gürcüstan qaz çatışmazlığı hiss edir, əsas strateji tərəfdaşımız olan Azərbaycan isə texniki cəhətdən gürcü tərəfinə daha çox qaz vermək imkanında deyil".

***

Qeyd edək ki, Tiflis hökuməti bu "defisiti" neçə vaxtdır Rusiya və İran mənbələri hesabına (Ermənistan vasitəsilə) aradan qaldırmağa çalışdığını deyir, eyni zamanda guya Bakı qazı daha baha satdığı, üçün bu variantlara getdiyini bəyan edir. Ancaq, hər iki istiqamət bəlli olduğu kimi faktiki olaraq, Rusiyanın nəzarətindədir. Rusiya tərəfi ilə - "Qazprom"la gedən danışıqlar isə hələ ki, bir nəticə vermir. Bunun siyasi səbəbləri olduğu da söylənilir. Hər halda, Gürcüstan müxalifəti və toplumu da Rusiyadan qaz asılılığına qarşıdır.

Bəzi analitiklərə görə, Tiflisin bütün bu qaz oyunlarının əsas hədəfi Azərbaycanın satdığı təbii qazın qiymətinin aşağı salınmasına nail olmaqdır. Çünki SOCAR Gürcüstana qaz təchizatının artırılmasında problem görmədiyini bildirib. Kaladzenin qəfil Bakı səfəri mümkündür ki, həm də bu yöndə yekun anlaşma ilə bağlı olsun.

Bir şey dəqiqdir ki, bölgə və onun ətrafında yaranmış olduqca həssas və təhlükəli situasiya iki strateji tərəfdaş ölkəni daha sinxron və ağıllı siyasət yürütmək zorunda qoyur. Azərbaycan prezidenti İlham Əliyevin qarşıdakı Gürcüstan səfəri bu xüsusda müttəfiqliyin yeni nümayişi ola bilər. Yeri gəlmişkən, gürcü nazirin Bakıya gəlişi bu səfərin detalları ilə də ilgili ola bilərdi...

***

Bölgədəki həssaslığın daha bir göstəricisi isə iki gün öncə Gürcüstan-Ermənistan sərhədinin möhkəmləndirilməsi üçün Tiflislə Vaşinqton arasında imzalanan müqavilə sayıla bilər. Yaxşı ki, qarşı tərəfdə də Azərbaycanın gürcü dövləti üçün strateji dəyərini anlayan və ona önəm verənlər az deyil.

"Bu gün bəzi qüvvələr qaz məsələsindən məqsədyönlü şəkildə istifadə edərək Azərbaycan-Gürcüstan dostluq münasibətlərinə xələl gətirməyə çalışırlar. Biz buna yol verməməliyik". **Bu fikri Gürcüstan parlamentinin maliyyə-büdcə komitəsinin sədri Tamaz Meçiauri deyib (Report).**

**Onun sözlərinə görə, Gürcüstanın təbii qaza və elektrik enerjisinə olan tələbatı günbəgün artır və bu üzdən Azərbaycandan alınan mavi yanacaq və Rusiyadan Ermənistana nəql olunan qaza görə kompensasiya şəklində alınan qaz azlıq təşkil edir:** "Buna görə də Gürcüstan hökuməti ölkənin təbii qaza olan tələbatını tam ödəmək üçün müxtəlif yollar axtarır, bəzi ölkələr, o cümlədən Rusiyanın "Qazprom" şirkəti ilə danışıqlar aparır. Rusiya bizə qazın nəqlinə görə kompensasiyanı nağd pul şəklində vermək istəyir, Gürcüstan isə əksinə, pulun əvəzinə daha çox qaz almaq niyyətindədir. Danışıqlar aparılır və hələlik heç bir nəticə yoxdur".

Komitə sədri onu da vurğulayıb ki, enerji sisteminin şaxələndirilməsi hər bir dövlətin, eləcə də Gürcüstanın daxili işi olsa da bu, heç də o demək deyil ki, Gürcüstan hökuməti Azərbaycan ilə münasibətləri korlamaq istəyir: "Gürcüstan Azərbaycanla əlaqələrin möhkəmlənməsində maraqlıdır. Azərbaycan bizim strateji tərəfdaşımızdır. Eyni zamanda ən böyük qaz təminatçımızdır. Azərbaycan qazından heç cür imtina edə bilmərik. Biz Azərbaycandan həm də elektrik enerjisi alırıq. Rusiyaya ümid edərək, özümüzü yenidən enerji blokadasına sala bilmərik. Heç kim təminat verə bilməz ki, Rusiya sabah yenidən öz niyyətlərini həyata keçirmək üçün qazı və ya elektrik enerjisini kəsməyəcək. Biz onda hansı vəziyyətə düşə bilərik, bunu yaxşı başa düşürük. Lakin təəssüf edirəm ki, bəzi qüvvələr bu vəziyyətdən öz xeyirlərinə istifadə etməyə, Azərbaycan-Gürcüstan münasibətlərini korlamağa çalışırlar".

**Gürcüstanın Cənubi Kaxetiya ərazisində 5,3 trln. kubmetr həcmində təbii qaz ehtiyatlarının tapılması barədə yayılan xəbərə münasibət bildirən komitə sədri deyib:** "Bu məsələ hələlik tam təsdiqini tapmayıb. Bundan əvvəl də Gürcüstan ərazisində karbohidrogen, xüsusən də təbii qaz ehtiyatlarının olması barədə xəbərlər yayılmışdı. Amma o zaman bu məlumatlar təsdiqini tapmamışdı. Əgər bu, həqiqət olsa, onda regionda vəziyyət tam dəyişəcək. Amma bu - hələ fərziyyədir. Bununla belə, yenə də Azərbaycanla münasibətlərimizi korlamamalıyıq".

❑ Siyasət şöbəsi

# Maliyyə bazarına nəzarət edən yeni qurum nə vəd edir?

## Ekspertlər hesab edir ki, artıq Azərbaycanın maliyyə bazarına nəzarət daha dəqiqliklə həyata keçiriləcək

**Ölkə başçısının fərmanına əsasən yeni bir qurum, Maliyyə Bazarlarına Nəzarət Palatası yaradılıb. İşçi qrupunun rəhbəri Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Rüfət Aslanlı təyin edilib. Məlumata görə, yeni qurum qiymətli kağızlar bazarının, investisiya fondu, bank və sığorta fəaliyyəti sahələrinin, habelə ödəniş sistemlərinin fəaliyyətinin çevikliyini və şəffaflığı təmin etməlidir. O, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarət sisteminin təkmilləşdirilməsini təmin edəcək.**




"Yeni Müsavat" Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması və ona verilən səlahiyyətlərlə bağlı millət vəkilləri ilə fikir mübadiləsi aparıb. Milli Məclis üzvlərinin sözlərindən bəlli olub ki, belə bir qurumun yaradılması və birbaşa ölkə başçısının nəzarətində olması Azərbaycanın maliyyə bazarı üçün müsbət perspektiv vəd edir.

**Milli Məclisin deputatı Zahid Oruc həm yeni yaradılan qurumu, həm də quruma rəhbər təyin edilən şəxsi təqdir edib:** "Prezident tərəfindən maliyyə nəzarəti funksiyalarının, sığorta işinin təşkili, qiymətli kağızlar sisteminin formalaşması qərarı çox mühüm bir addım idi. Rüfət Aslanlı kifayət qədər peşəkar, beynəlxalq maliyyə sistemlərini bilən, idarəçilikdə səhmləşmənin önəmini çox yaxşı qəbul edən, bundan ötrü müxtəlif idarəetmə strukturları ilə hər zaman danışıqlar aparan, parlamentdə açıq debatlarda iştirak edən bir insandır. Gerçəkdən də Rüfət Aslanlının vasitəsi ilə bu sferada dövlət rəhbərliyinə dair, ən optimal, vətəndaşın və dövlətin xeyrinə olan ən yaxşı ideyaların və planların təklif ediləcəyinə inanırıq".

**Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov da qurumun maliyyə sisteminə nəzarətinin müsbət nəticələrə səbəb olacağını bildirdi:**

«Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması bizi narahat edən məsələlərdən biri idi. Xatırlayırsınızsa, mən Milli Məclisdə mütəmadi olaraq maliyyə nəzarəti haqqında qanunu qaldırırdım ki, bu qanun qəbul edilsin. Bu qanunun qəbul edilməsində məqsəd Azərbaycanın maliyyə bazarına nəzarətin təmin edilməsi, nəzarət mexanizminin qurulması idi. İndi bu palata yaradıldı, bu palataya mühüm səlahiyyətlər verilib. Palatanın hətta ölkəyə daxil olan valyuta axınına, Azərbaycandan xaricə gedən valyuta axınına, daxildə bank sisteminə nəzarət səlahiyyəti olacaq".

**Deputat hesab edir ki, həm Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin, həm Sığorta Nəzarəti İdarəsinin, həm də Mərkəzi Bankdakı maliyyə monitorinqi qrupunun buraya daxil edilməsi çox müsbət haldır:** "Çünki adıçəkilən sahələrdə çox mühüm problemlər var. Bu qurumun yaradılması və sırf dövlət başçısına tabe edilməsi çox böyük əhəmiyyət kəsb edir. Biz maliyyə nəzarəti haqqında qanunu qəbul edəndə də mən təkid edirdim ki, bu orqan birbaşa prezidentə tabe edilsin. Çünki çirkli pulların yuyulması ilə əlaqədar bir orqan idi. Sonradan qərar verdilər ki, Mərkəzi Banka tabe edilsin. Mən isə bildirdim ki, bu düzgün deyil. Çünki Mərkəzi Bank özü maliyyə siyasətini həyata keçirən orqandır, nəzarət mexanizmini onlardan ayırmaq lazımdır. Yaxşı oldu ki, belə bir orqan yaradıldı. Artıq Azərbaycanın maliyyə bazarına nəzarət daha dəqiqliklə həyata keçiriləcək".

❑ Nərgiz LİFTİYEVA

# Ötən ay BTC-dən 2,3 milyon ton Azərbaycan nefti nəql olunub

**2016-cı ilin yanvar ayı ərzində BTC əsas ixrac boru kəməri vasitəsilə 2 milyon 288 min 590 ton Azərbaycan nefti nəql olunub. SOCAR-dan lent.az-a verilən məlumatına görə, kəmər istifadəyə verilən gündən 2016-cı il fevral ayının 1-nə qədər BTC-yə 294 milyon 963 min 979 ton neft vurulub.**




Bundan başqa, 2016-cı ilin yanvar ayında BTC kəməri ilə 358 min 533 ton Türkmənistan və Qazaxıstan nefti nəql olunub.

2016-cı ilin yanvar ayı ərzində 2 milyon 848 min 91 ton Azərbaycan nefti Ceyhan limanından dünya bazarlarına çıxarılıb. Bu həcmin 1 milyon 510 min 914 tonunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun nefti təşkil edib. Ümumiyyətlə, BTC istismara verilən gündən 2016-cı il fevral ayının 1-nə qədər Ceyhan limanından 294 milyon 41 min 863 ton Azərbaycan nefti dünya bazarlarına yola salınıb.

YENİ MÜSAVAT
N 27 (6348) 5 fevral 2016

# Deputatdan varlılara ilginc müraciət

## Vahid Əhmədov: "Əgər Azərbaycanın müstəqilliyini istəyirsinizsə, həmin vəsaitləri gətirin Azərbaycana!"

**"Azərbaycanda maliyyə amnistiyasına böyük ehtiyac var". Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov bunu "Yeni Müsavat"a Qazaxıstan prezidenti Nursultan Nazarbayevin sahibkarlara ünvanladığı son müraciətini dəyərləndirərkən bildirdi.**



V.Əhmədov bildirdi ki, Nursultan Nazarbayev vaxtilə Qazaxıstandakı özəlləşdirmə prosesində qanuni, qeyri-qanuni iştirak etmiş, əldə etdikləri vəsaitləri xaricdə yatıranlara müraciətini təqdir edir: "Nazarbayev dedi ki, "mən sizin heç birinizə toxunmayacağam, o pulları qazanmısınız, xoş halalınız, amma indi həmin vəsaitləri gətirib Qazaxıstana investisiya şəklində qoyub ölkənin iqtisadi inkişafına köməklik etmək lazımdır. Azərbaycanda da özəlləşdirmə prosesindən istifadə edən, xaricdə vəsait saxlayan insanlar çoxdur. Azərbaycan vətəndaşı, bir deputat kimi mən də müraciət edirəm ki, pullarınızı xaricdə saxlamayın! Əgər siz Azərbaycanın müstəqilliyini istəyirsinizsə, həmin vəsaitləri gətirin Azərbaycana. Məncə, dövlət başçımız da heç kimə toxunmaz, amnistiya verər, bu məsələlər öz həllini tapar və siz də ölkəmizin iqtisadi inkişafına böyük fayda verərsiniz. Qazandığınız halalınız olsun".

**V.Əhmədov xatırlatdı ki, Azərbaycanın dövlət başçısı da son iclaslarda ölkəmizə investisiya qoyuluşu ilə bağlı müraciətlər edib:** "Bu gün Azərbaycanın investisiyalara ehtiyacı var. 4-5 il əvvəl bu ehtiyac böyük deyildi. Ona görə də bu prosesdə bizim xaricdə vəsaitləri olan insanlarımız iştirak etsə, çox yaxşı olar".

Deputat son vaxtlar bankların ardıcıl şəkildə bağlanmasını da düzgün saymadığını bildirdi: "Mənim bankların bir neçəsi ilə söhbətim də olub. Demişəm ki, vaxtilə insanlara yüksək faizlə kreditlər vermisiniz, indi o insanlara güzəştə gedin, borcları qaytarmaq imkanları yoxdur, vəziyyətləri ağırdır. Onlar deyiblər ki, bizim də vəziyyətimiz ağırdır, çünki devalvasiyadan sonra bankların özü də müəyyən qədər zərərə düşüblər, onların özünün də köməyə ehtiyacı var. Amma Mərkəzi Bankın buna imkanı var, məsələni həll edə bilər. Əlbəttə ki, Maliyyə Nazirliyinin razılığı ilə bu məsələlər öz həllini tapmalıdır. Ümumiyyətlə, bank sistemində islahatlar getməlidir. Mən bankların bağlanması prinsipi ilə razı deyiləm. Biz bank sistemində islahatlar getməlidir deyəndə demişik ki, bank sistemində təmərküzləşmə prosesi, bankların birləşməsi prosesi getməlidir. Yəni iri banklar yaradılsın, 43 bank olmasın, olsun 15-20 bank. Amma onların nizamnamə kapitalı, kredit portfeli, likvidliyi yüksək olsun, onlar aşağı faizlə kredit vermək imkanlarına malik olsun. Amma banklar bağlananda orda ciddi problemlər yaranır. Banklarda insanların depozitləri, əmanətləri var, onların qaytarılması ilə əlaqədar müəyyən problemlər yaranır".

**V.Əhmədov borclu insanların intihara əl atmasından da narahatlığını ifadə etdi:** "Elə buna görə də təklif etmişik ki, 10 min dollara qədər olan kreditlər köhnə faizlə ödənilsin. Ümumiyyətlə, son illər bank sistemi ilə əlaqədar ölkədə çox ciddi problemlər yaranıb. 1,4 milyard manata yaxın vaxtı keçmiş kredit borcları var. Bu, Azərbaycanın maliyyə bazarı üçün çox böyük rəqəmdir, təxminən dövlət büdcəsinin 10 faizinə bərabərdir. Problemlər öz həllini tapmayıb, əksinə, borclar arta-arta gedir. Ona görə də məsələlər öz həllini tapmalıdır. İntihar hadisələri, insanların öz həyatına qəsd etməsi çıxış yolu deyil. Amma insanları da başa düşmək lazımdır ki, borcu qaytarmağa imkanı yoxdur, çarəsizdir, ola bilsin iş yeri tapa bilmir. Vaxtilə o kreditləri verəndə bank da, kredit götürən şəxs də fikirləşməli idi ki, həmin krediti vaxtında qaytara biləcəkmi? Mən məsləhət görərdim ki, bank sistemi bu məsələlərdə daha da çevik hərəkət etsin".

❑ **Cavid TURAN**



# "Azərişıq" sabiq polis rəisinə vəzifə verilməsini şərh etmir

## Ələsgər Bədəlovun təyinatının sirri

**Mingəçevirin keçmiş polis rəisi, ötən ilin noyabrında yaşına görə təqaüdə göndərilən Ələsgər Bədəlov yeni vəzifəyə təyinat alıb. O, "Azərişıq" Nizami Rayon Enerji Təchizatı və Satış İdarəsinin rəisi olub. Sabiq polis rəisinin bu vəzifəyə təyin olunması mətbuat və sosial şəbəkələrin əsas müzakirə mövzularından birinə çevrilib.**

Buna səbəb Ə.Bədəlovun polis rəisi olduğu zamanlardakı fəaliyyəti və aidiyyəti olmayan bir sahəyə rəhbər gətirilməsidir. Ə.Bədəlov rəis işlədiyi vaxt Mingəçevir polisində 22 yaşlı gənc Bəhruz Hacıyev müəmmalı şəkildə həyatını itirmişdi. Məhz bu hadisə Mingəçevirdə etirazlara səbəb olmuşdu.

Vaxtilə polis rəisi işləyən bir şəxsin "Azərişıq"a idarə rəisi gətirilməsi müəmmalıdır. "Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev məzuniyyətdə olduğuna görə bu məsələ ilə bağlı açıqlama verə bilməyəcəyini qeyd etdi: "Məzuniyyətdəyəm, ona görə də şərh verə bilmərəm. Çünki belə bir səlahiyyətim yoxdur".

**Hüquqşünas Müzəffər Baxış qanunda buna məhdudiyyət qoyulmadığını bildirdi:** "Digər bir sahədə işləyən şəxsin başqa bir sahədə vəzifəyə təyinat almasına qanunla məhdudiyyət qoyulmur. Amma bu sahə spesifikdir. Bu vəzifəyə həmin sahəni mükəmməl bilən şəxs təyin olunmalı idi. Bunun effekti daha yüksək olar. Onun vəzifəyə təyin olunması göstərir ki, kiminsə tapşırığı bu işdə əsas rol oynayıb. Azərbaycan reallığına uyğun bir haldır. İctimaiyyət bu məsələnin üzərinə getməlidir. Ciddi araşdırmaya ehtiyac var. Çünki Ə.Bədəlov bu sahə üzrə mütəxəssis deyil. Ümumiyyətlə, bu sahədən xəbəri yoxdur. Uzun müddət polis orqanlarında işləyən bir şəxsin bu vəzifəyə təyinat almasına səbəb nədir? Bəlkə müsabiqə keçirilib, orada Bədəlov qalib gəlib, biz bilmirik. İctimaiyyətə bu barədə məlumat verilməlidir. Əgər kimsə Bədəlovun bu vəzifəyə təyin olunmasına göstəriş veribsə, o zaman "Azərişıq"ın rəhbəri vəzifəsindən azad olunmalıdır. Göstəriş verən şəxs isə cinayət məsuliyyətinə cəlb olunmalıdır. Ona qarşı Cinayət Məcəlləsinin 308.1-ci maddəsi irəli sürülə bilər. Dövlətin və cəmiyyətin mənafeyinə ciddi ziyan dəyib. Burada əsas Bədəlovun o vəzifəyə təyin olunmasında böyük rolu oynayan şəxsin kimliyindən söhbət gedir".

❑ **Cavanşir ABBASLI**

# Deputatlar əmanətlərə təhlükələrdən danışdılar

## Yeni qanun geriyə də şamil edilə bilər?

**Bağlanan banklardan əmanətlərin qaytarılması problemi həm əmanətçiləri, həm də hökuməti narahat etməkdədir. Əmanətçilər vəsaitlərinin 30 min manatdan yuxarı hissəsini itirmək, hökumət isə külli miqdarda vəsaitini itirən vətəndaşların qəzəbi ilə üz-üzə qalmaq təhlükəsindədir. Artıq günlərdir ki, bu məsələ mətbuatın gündəmindən düşmür.**

Hakim YAP-dan olan deputat **Aydın Mirzəzadə** bildirdi ki, bu məsələ həm hökumətin, həm də Milli Məclisin diqqətindədir: "Əmanətlərin sığortalanması ilə bağlı qanuna dəyişiklik edilib. Artıq banklardakı bütün əmanətlər sığortalanıb. Dünyanın bütün ölkələrində belə bir qayda var. Bir qayda olaraq ancaq müəyyən məbləğ, müəyyən bir faiz götürülür. Doğrudan da əvvəlki qanunda 30 min manata qədər olan əmanətləri qaytarılması nəzərdə tutulur. Bu situasiyada nə edəcəyini artıq ya Mərkəzi Bank, ya da bağlanan banklar özü müəyyənləşdirməlidir. Əgər bankların imkanı varsa, o zaman əmanətləri tam qaytarmalıdır. Mərkəzi Bank tərəfindən həmin banklara müvəqqəti inzibatçı ona görə təyin edilir ki, onlar həmin situasiyaya görə qərarlar qəbul edilməsinə nail olsunlar. Hər halda, hesab edirəm ki, bu məsələ Mərkəzi Bankın diqqətindədir".

**A. Mirzəzadə həmçinin qanunun qəbul edilməsinin yubadılması ilə bağlı iddiaları da dəyərləndirdi:** "Belə rəylər var ki, həmin qanunun qəbul edilməsi ona görə yubadılır ki, banklar bağlansın və Mərkəzi Bank böyük məbləğdə olan əmanətləri ödəmək məcburiyyətində qalmasın. Lakin mən belə hesab etmirəm. Hazırda Mərkəzi Bankın əsas məqsədi manatın stabilləşməsidir. Aparılan siyasət ona gətirib çıxardı ki, son bir həftədə manat 3 qəpiyə qədər




bahalaşdı. Bu özü də yaxşı göstəricidir. Qanun qəbul edildən sonra bağlanan banklar üçün məsələ aydındır, bütün əmanətlər ödənilməlidir. Bankların vəsaitləri olmasa belə, 30 min manata qədər olan əmanətlər sığorta fondundan qaytarılacaq. Bankların ümumi vəsaitindən qalan vəsait də qaytarılmalıdır. Buna Mərkəzi Bankın göndərdiyi inzibatçılar nəzarət edəcək".

**Milli Məclisin deputatı Zahid Oruc isə bankların bağlanmasının inzibati yolla deyil, təbii bir proses kimi aparılmasının önəmini qeyd etdi:** "Bankaların bağlanması, sadəcə, bu sistemdə dayanıqlıq yaratmaq ideyası ilə reallıqda uzlaşmır. Çünki banklar vətəndaşlarla əmanət və kreditlər üzrə iqtisadi siyasət həyata keçirir. Günün birində isə bankların bağlanması haqqında qərar veriləndə vətəndaşlar özlərini Sovetlər Birliyinin dağılmasından sonrakı vəziyyətdə olduğu kimi hiss etdilər. Onlara elə gəldi ki, dövlət və ya bank strukturu onlara borclu qaldı. İndiki halda isə Mərkəzi Bank özünün hüquqi statusuna görə nə qədər ictimai təsisat olsa da, dövlətin adından çıxış edir. Ona görə də vətəndaşlara elə gəlir ki, onun problemləri məhz hansısa hökumət qurumuna bağlıdır.

İkinci bir nüans odur ki, inzibati qərarlar çox da effektiv olmur. Yəni banklar arasında güclü rəqabət prosesini təşkil etmək və ya onların nizamnamə fondunu 50 deyil, 100 milyon manata qaldırmaq yetərli idi ki, bankların birləşməsi təbii xarakter alsın. Hazırda banklara milyonlarla manat vəsait qoyan insanlar var. Əmanətlərin Sığortalanması Fondu həmin əmanətləri tam qaytarmağa imkan vermir".

**Zahid Oruc qəbul ediləcək qanunun geriyə də şamil edilə biləcəyini qeyd etdi:** "Bir çoxları belə düşünür ki, yanvarın 19-da növbədənkənar parlament iclasından keçən qanunvericilik aktının imzalanması ona görə gecikdirilir ki, guya Mərkəzi Bank bankların bağlanması prosesini yekunlaşdırsın, bundan sonra bütün əmanətlərin sığortası təmin edilsin. Bu, ən sadə hüquqi iddialara belə dayanmayan bir mövqedir. Konstitusiyanın müvafiq maddəsi və onun əsasında hazırlanan normativ hüquqi aktlar var. Orada aydın şəkildə yazılıb ki, yeni qanun vətəndaşlar üçün fərqli bir vəziyyət müəyyənləşdirirsə, bu halda onun tələbləri keçmiş vəziyyətə görə tətbiq olunmur. Yəni əgər dəyişiklik vətəndaşın ziyanınadırsa, tətbiq olunmur, xeyrinədirsə, tətbiq oluna bilər. İstənilən vətəndaş yeni çıxan qanun əsasında öz hüquqlarını təmin edə bilər".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 27 (6348) 5 fevral 2016

# Ekspertlər Apelyasiya Şurasına ümidlə baxır

## Yeni qurum sahibkarlar üçün nəyi dəyişəcək?

**Prezident İlham Əliyevin imzaladığı fərmanla Apelyasiya Şurası yaradıldı. Şuranın yaradılması sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinə baxılması sahəsində çoxpilləliyin təmin edilməsi məqsədi daşıyır və yuxarı orqana şikayətlərin verilməsi mexanizminin təkmilləşdirilməsi işinə xidmət edəcək. Fərmana əsasən, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, eləcə də prezident yanında şuralar yaradılacaq.**



Əsasnaməsinə görə, şura sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılmasını təmin etməlidir. Həmçinin müvafiq qərarlar verib, onların icrasını nəzarətdə saxlayacaq. Başqa bir fərmanla Dövlət nəzarəti şöbəsinin müdiri Eldar Nuriyev təyin edilib.

Bəs görəsən, bu şuranın yaradılması iqtisadiyyatda, sahibkarlığın inkişafında hansı irəliləyişlərə zəmin yaradacaq? İqtisadçılar hesab edir ki, əgər qurum şəffaf və ədalətli şəkildə fəaliyyət göstərsə, sahibkarlığın inkişafına əngəl olan problemlərin həllinə nail olmaq mümkün olacaq.

**İqtisadçı ekspert Rəşad Həsənov açıqlamasında bildirdi ki, yeni yaradılan şura fəaliyyətini digər dövlət qurumlarına bənzətsə, heç bir irəliləyiş olmayacaq:** "İlk növbədə onu demək lazımdır ki, bu qurumun yaradılması müsbətə doğru bir addımdır. Amma əsas məsələ ondan ibarətdir ki, bu növbəti dövrlərdə öz fəaliyyətini digər dövlət qurumlarının təklifləri əsasında və onlara bənzər şəkildə qurmasın. Çünki biz müşahidə edirik ki, əksər hallarda bu kimi qurumlar öz fəaliyyətlərində sahibkarlığa dəstək, yerli sahibkarlığın inkişafı ilə yox, əksinə, hansısa maneələrin yaradılmasına gətirib çıxarırlar".

**Ekspert ümid edir ki, hazırki situasiyada, iqtisadi böhranın dərinləşməsi prosesinin dərinləşməsinin davam etdiyi bir dövrdə bu qurum öz fəaliyyətini şəffaf və ədalətli şəkildə quracaq:** "Bundan sonrakı dövrdə müəyyən qədər biznes sektorunun inkişafına öz dəstəyini göstərəcək. Bu qurumun yaradılmasının səbəbi ondan ibarətdir ki, son dövrlərdə daha çox müzakirə edilən, həmçinin ölkə başçısı tərəfindən səsləndirilən problemlər, sahibkarlığa kənar müdaxilə, bunun aradan qaldırılması, monopoliya meyllərinin məhdudlaşdırılması, biznes münasibətlərinin nisbətən şəffaflaşdırılması kimi məsələləri həll etmək məqsədi daşıyır. Ancaq əsas məsələ odur ki, bu qurum öz fəaliyyətini sahibkarların müdafiəsi prinsipi əsasında qurmalıdır və burada hansısa subyektiv yanaşma ortaya qoyulmamalıdır. Əks halda, effekt verməyəcək".

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov da Apelyasiya Şurasının biznesə dəstək verəcəyinə inandığını ifadə etdi:** "Həm icra hakimiyyəti nəzdində, həm mərkəzi icra hakimiyyəti orqanlarında, həm də prezident yanında Apelyasiya Şurasının yaradılması nəzərdə tutulur. Mən icra hakimiyyəti və mərkəzi icra hakimiyyəti orqanlarında yaradılacaq Apelyasiya Şurasını başa düşdüm. Prezident yanında Şuranın yaradılması və fəaliyyəti də önəmlidir. Həmin şuraya Eldar Nuriyev sədr təyin edilib. Əlbəttə, bunun sahibkarlığın inkişafına müəyyən qədər təsiri olacaq.

Biz də bir neçə dəfə təklif etmişik ki, prezident yanında İqtisadi Şura yaradılsın. Oraya görkəmli iqtisadçılar, hüquqşünaslar daxil edilsin ki, onlar ölkənin iqtisadi problemlərinin həllində fəal iştirak etsinlər. Bu şura isə sırf sahibkarlığın inkişafı ilə, oradakı problemləri aradan qaldırmaqla məşğul olacaq. Təbii ki, bunun böyük əhəmiyyəti var. Sırf prezident yanında yaradılması çox böyük əhəmiyyət kəsib edir".

**Prezidentin iqtisadi islahatlar üzrə köməkçisi Apelyasiya şurasının yaradılması ilə bağlı mətbuata açıqlama verib. Açıqlamada şuranın iş prinsipi belə qeyd edilib:** "Fərmanın qəbul edilməsindən sonra sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı yerli icra hakimiyyəti orqanının sərəncamından, əmrindən, mərkəzi icra hakimiyyəti orqanının və onun yerli (struktur) qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) yerli icra hakimiyyəti orqanlarının və mərkəzi icra hakimiyyəti orqanlarının apelyasiya şuralarına müraciət edə biləcəklər. Bundan əlavə, sahibkarlar yerli icra hakimiyyəti orqanlarının və mərkəzi icra hakimiyyəti orqanlarının apelyasiya şuralarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən narazı qaldığı təqdirdə Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasına müraciət edə biləcəklər".

❑ **Nərgiz LİFTİYEVA**

# Elman Rüstəmov səlahiyyətlərinin alındığını təkzib etdi

## "Mərkəzi Bankın maliyyə sabitliyinin təmin olunması funksiyası ləğv edilməyib"



**"Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması müsbət addımdır".**

"Report"un məlumatına görə, bunu Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov bildiririb.

O qeyd edib ki, indiyədək Azərbaycanda maliyyə bazarlarına nəzarət edən bir neçə qurum fəaliyyət göstərirdi: "Bu funksiyanı Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti və Mərkəzi Bank yanında Maliyyə Monitorinqi Xidməti həyata keçirirdi.

Beynəlxalq təcrübəyə əsaslanaraq bu konsolidasiyaya gedildi. Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması maliyyə bazarlarında vahid siyasət və vahid tənzimləmə standartları rejimini həyata keçirməyə imkan yaradacaq, bunu reallaşdırmaq mümkün olacaq".

**E.Rüstəmov vurğulayıb ki, bu istiqamətdə Mərkəzi Bankın da öz funksiyalarını həyata keçirməsi asanlaşacaq:** "Çünki Mərkəzi Bankın maliyyə sabitliyinin təmin olunması funksiyası ləğv olunmayıb və əvvəki formada qalıb. Maliyyə sektorunda, xüsusilə maliyyə sabitliyinin yaradılmasına birgə çalışacağıq".

**"Zəif, problemi olan banklar sistemdən uzaqlaşdırılmalıdır" deyən Elman Rüstəmov qeyd edib ki, ilkin mərhələdə sistemi tərk edən banklar ödəmə qabiliyyətini itirənlərdir:** "Maliyyə sektorunda konsolidasiya problemləri həmişə diqqət mərkəzində olub. Bağlanmış banklara diqqət yetirsək görərik ki, onların ölkənin sosial-iqtisadi sistemində rolu bir o qədər də böyük deyil. Əksinə, maliyyə sabitliyi üçün problemlər yarada bilərdi". E. Rüstəmov bildirib ki, onun rəhbərlik etdiyi qurum bir neçə banka birləşmək üçün 1 ay vaxt verib: "Bu proses başa çatmalı və onlar vahid banka çevrilməlidirlər".

# Taksidə iqtisadi analiz və "Ronaldo-Messi" davası



**Samir SARI**

**Dünən taksiylə yol gedərkən, maraqlı söhbətə düşdüm.**

"İlin-günün bu vaxtında taksiyə verməyə pul hardandır" deyə müəllifi burjuyluqda ittiham edənlər (beləlləri mütləq tapılır) üçün deyim ki, bu, onların bildiyi taksi deyil, "şaraqq" eləyib sayğacı qoşa, sən də 5 kilometrlik yola 6 manat verəsən.

Mən mindiyim taksi 1 manatlıq taksiydi. Belə taksilər metrostansiyaların çıxacağında dayanır, dörd nəfər götürür, hərəsindən 1 manat alır və mənzil başına çatdırır. Mənzil başı da buracıq-oracıq deyil, azı 15-20 kilometrdir.

Devalvasiyadan əvvəl bu taksilər 1 manat 50 qəpiyə işləyirdilər, böhrandan sonra qiyməti endirib 1 manat ediblər. Bu da ona görədir ki, bu sektorda böyük rəqabət əmələ gəlib. 1 manata taksi xidməti göstərənlər çıxalıb.

Xülas, dörd nəfər olduq, tərpəndik, təxminən 100 metr yol getmişdik ki, sərnişinlərdən biri yanındakı tanışına dedi: "Xəbərin oldu də, sənin Ronaldon yenə qaçıb Mərakeşə, oğlan dostunun yanına". O bunu dedi və irişdi. Görünür, onların arasında uzun sürən "Messi-Ronaldo" qovğası vardı, indi Messi fanatı olanın əlinə fürsət düşmüşdü ki, Ronaldo fanatı olan dostuna sataşsın. O da astadan nə dedisə (güman ki, "sonra danışarıq"-zad), söhbət kəsildi.

Bu əsnada 35-40 yaşlı (onun üz cizgiləri görünməsə də, peysər görünüşündən və səs tembrindən yaşı bu qədər olardı) taksi sürücüsü təşəbbüsü ələ aldı və maşının salonunda gedəsi söhbətə moderatorluq etməyə başladı. Söhbət güzərandan, devalvasiyadan, yol kənarında gedən söküntü-dağıdıcılıq işlərindən düşmüşdü. Sürücümüz cəmi bir il öncə böyük bəh-bəhlə yol kənarında tikilmiş, üstünə çim qatı çəkilmiş, ekzotik ağaclar əkilmiş təpəciklərin yerlə yeksan edilməsi barədə ürəkağrıdıcı çıxış edəndən sonra söhbətinə belə bir rezüme vurdu ki, bütün bunların hamısı büdcə pullarını yeyib-dağıtmaq üçündür.

Öndə oturan adam onun sözünə qüvvət verdi, dedi, büdcədəki pullar kimindir ki... sənin, mənim, xalqındır, belə-belə işlərə israf edir, basıb yeyirlər, ona görə də bu gündəyik.

Sürücü bir az da qızışdı, ölkənin niyə bu gündə olmasının iqtisadi-siyasi səbəblərini göstərdi, xalq-məmur, hakimiyyət-müxalifət münasibətlərini təhlil etdi. Açığı, adam xeyli hazırlıqlı idi, danışığında müəyyən mübahisəli məqamlar olsa da, əsasən düz deyirdi.

Söhbətinin mabədində o, ölkəmizin əsas problemlərini də təsnifatlaşdırdı və böhrandan çıxış yollarını göstərdi, dedi ki, təcili şəkildə orta sahibkarlığı gücləndirmək, aqrar sektora diqqəti artırmaq, rayonlarda istehsal müəssisələri açmaq, milli iqtisadiyyatımızın neftdən asılılığını azaltmaq lazımdır.

Sanasan, adam Qubad İbadoğlunun yanında xüsusi iqtisadiyyat kursu keçib, yaxud da politoloq Şahin Cəfərliylə kurs yoldaşı olub.

Arada quşqulandım ki, sürücü ali təhsilli politoloqdur, sadəcə, Allah əlacını kəsib, o da gəlib əhaliyə taksi xidməti göstərir. (Bələlərinə də rast olmuşluğum var). Ancaq məlum oldu ki, elə deyil. Sürücü özü etiraf etdi ki, orta məktəbi ölüm-zülüm qurtarıb, amma indi məcburiyyət üzündən olub-keçənlərlə maraqlanır, belə-belə şeyləri ona görə bilir.

Bu cür adamlar çoxdur, ağır güzəran, ümumi vəziyyət onların hamısını təhlilçi politoloq, iqtisadçı ekspert edib. Neyləsinlər, çıxış yolu axtarırlar, axtarırlar, axırda tapırlar, ancaq bildikləri yolla irəliləyib vəziyyətdən çıxmaq üçün qərarı onlar yox, sarayda çalışan iqtisadçılar, bankirlər verir. Onlar da deyir ki, heç bir iqtisadi tənəzzüldən söhbət gedə bilməz, hər şey nəzarətdədir, iqtisadi inkişaf templərinə görə regionun lider dövləti olaraq qalırıq.

Ancaq taksi sürücüsünün bu dərin məzmunlu söhbətinin maşındakı 4 nəfərdən ikisinə, futboldan danışan gənclərə qətiyyən dəxli yox idi. Onlar yolun yarısında yenidən Ronaldonun həftədə bir dəfə Mərakeşə uçmasından danışdılar. Biri dedi ki, Ronaldo quşdur, o biri də dedi ki, ona qalsa Messi də autizm xəstəsidir. Sonrakı dialoq da bu cür oldu: "Autizm xəstəsi olmaq petuxluqdan yaxşıdır"; "hələ bilmək olmaz Messi nə yuvanın quşudur".

Xalqımız da bu cürdür, ümumi dərd-sərindən danışmaq əvəzinə manısların davasından danışır.

YENİ MÜSAVAT
N 27 (6348) 5 fevral 2016




# Bu imtahanın nəticələri digər aləmdə biliınəcək

**Cümə söhbətləri**

**Bismillahir-Rahmənir-Rahim! Allaha həmd olsun ki, bizlərə düşünmə, anlama tofiqatı nəsib edib. İnsan əslində düşünmə imkanı ilə, dərketmə imkanı ilə bir çox həqiqətləri dərk edə bilir. Bu həqiqətlərdən biri də ölüm, bu dünyanın müvəqqəti olması və buradan sonra yeni bir həyatın başlamasıdır.**

İndi ki, bu həyat müvəqqətidir və buradan sonra yeni həyat başlayır, burada hər kəs bir gün dünyasını dəyişəcək - buranın mahiyyətinin də nə olmasını insan təfəkkür etsə, anlayar. Bu dünyanın mahiyyəti elə müvəqqətiliyindədir. Buranın içərisində olan bütün şirinli-acılı məsələlərin hamısı yekun olaraq, yeni həyata getmək üçün müqəddimədir.

## Rəbbimiz Qurani-Kərimdə bu dünya həyatının mahiyyətini açıqlayır

Rəbbimiz özünün mübarək Qurani-Kərimində bu dünyanın mahiyyəti barədə ciddi çatdırış edir. Qurani-Kərimdə "Ənbiya" surəsinin 35-ci ayəsində bu həqiqətləri çatdıraraq, buyurur: **"Hər bir kəs ölümü dadacaqdır. Sizi pislik və yaxşılıq (xəstəlik və sağlamlıq, yoxsulluq və sərvət) ilə imtahan edirik və Bizə tərəf qaytarılacaqsınız".** Çox incə nöqtələrdir. Pislik və yaxşılıqlar içərisində də təfsiri baxımından çox geniş əhatələr var. Xəstəliklər, yoxsulluqlar - həmin pisliklərin mistaqları, nümunələridir. Sağlamlıq və sərvət həmin buyurulan yaxşılıqların nümunələridir. Bu mənada nəzərə salsaq, görəcəyik ki, bizlər bu həyatımızın içərisində müxtəlif vəziyyətlərə düşürük. Acılı zamanlarımız da olur, şirinli zamanlarımız da. Bunlar hamısı Rəbbimiz tərəfindən bizi imtahana, sınağa çəkmək üçündür.

Aydın olan budur ki, ölüm - bir gerçəklikdir, hər bir insan bununla üz-üzə gələcəkdir. Ölüm - hər bir insanın bu dünyadakı qaçılmaz yekunudur. Hər bir insan ölümün dadını dadacaqdır. Bu mövzu birmənalıdır və hər bir insanın yekunu ölümlə olacaq. Allah Təala bizə xəbərdarlıq edir ki, hər birimiz üçün yekun budur. Hər bir insanın yekunu ölümdür. İnsan adlanan hər bir varlıq yekunda ölümü dadacaq. O zaman sual çıxır ki, əgər hər bir insan ölümü dadacaqsa, o zaman dünyada nə edir? Burada mövcudiyyət nə mahiyyət daşıyır? Özü də belə bir şirinli-acılı mövcudiyyət. Allah Təala Özü buna da işarə edir. İnsanların pis və yaxşı mövzularla imtahana çəkiləcəklərini Rəbbimiz bəyan edir. Bu dünya - insanların imtahana çəkildiyi bir yerdir. Bu imtahanın da bir dəyərləndirilməsi olacaq.



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

## Ölüm - bu dünya həyatının yekununun qaçılmaz gerçəkliyidir

Deməli, ölüm - bir qaçılmaz gerçəklikdir. Ölüm - bu dünyanın, bu həyatın yekunudur. İnsan iki həyata malik varlıqdır. Bu dünya həyatı - insanın birinci həyatıdır. Bu, yaxın həyat da adlanır. İkinci həyat isə - axirət həyatı, yəni növbəti həyatdır. Birinci həyatın yekunu ölümdür. Birinci həyat ölüm olmadan yekunlaşa bilməz. Mübarək Qurani-Kərim bizləri bundan xəbərdar edir. Hər bir insan birinci həyatın sonunda ölümü dadacaq. Birinci həyatda da insan pis və yaxşı mövzularla imtahana çəkilər. Bu imtahanın da dəyərləndirilməsi üçün Rəbbimizə tərəf qayıdış olacaq, bu imtahanın nəticələri Qiyamətdə bilinəcək. Bu zaman dünya həyatındakı imtahanımızın qiymətləndirilməsi baş verəcək.

## İnsanın bu dünyada yalnız çətinliklərlə imtahan edilməsi yanlış təsəvvürdür

Belə başa düşülür ki, insanın bu dünyada mövcudiyyət fəlsəfəsi, mövcudiyyət hikməti - imtahanlı bir həyat yaşamasıdır. Çünki, yekunda hər kəs ölümü dadacaqdır. Hər kəs bu ölümü dadacaqsa, bəs onda burada nə edir? Rəbbimiz bəyan edir ki, insan burada imtahan verir və sonra Ona tərəf qaytarılacaq: **"...Sizi pislik və yaxşılıq (xəstəlik və sağlamlıq, yoxsulluq və sərvət) ilə imtahan edirik və Bizə tərəf qaytarılacaqsınız".** Yəni bura imtahan yeridir, özü də elə-belə imtahan yeri deyil. Həm şər, həm xeyir, həm yaxşı, həm pis, həm bizə xoş gələn, həm bizə xoş gəlməyən mövzularla növbənöv imtahanlar olacaq. Təfsirlərdə buna dair nümunələr də göstərilir. Yoxsulluq həmin pis mövzuların nümunəsidir, xəstəlik həmin pis imtahanın nümunəsidir. Əksinə sağlamlıq, sərvət, əmin-amanlıq yaxşı məsələlərlə imtahanın nümunələridir. Nəhayətdə hər ikisi imtahandır. Belə deyil ki, yalnız çətin olanda insan üçün imtahan olsun. Yaxşı olanda da insan üçün imtahandır. Yaxşı olanda insan nə edir, necə davranır? Sağlam olanda, imkanı olanda insan həyatını necə nizamlayır? Bu, səhv anlayışdır ki, insan yalnız çətinliklərlə imtahana çəkilir. İnsan sağlamlıqla da imtahana çəkilir. O, sağlamlıqla necə rəftar edir, sağlamlığından necə bəhrə götürür? İnsan imkanlılıqla da imtahana çəkilir. Necə davranır sərvəti ilə, bu sərvət onun durumuna necə təsir qoyur? Yəni mübarək Qurani-Kərimdə Rəbbimiz açıq-aydın bəyan edir ki, bu dünya həyatında insan həm çətinliklərlə, həm də xoşluqlarla imtahana çəkilər və yekunda Rəbbinə tərəf qaytarılacaq. Bu zaman dünya həyatındakı imtahanının nəticələri aydın olar.

## Bu dünyadakı imtahanların nəticəsi Rəbbin hüzuruna qayıdışda bilinəcək

Bu nurani ayəyə diqqət etdikdə, insan bir neçə mühüm həqiqətləri anlayır. Qurani-Kərim gerçəklik kitabıdır. Qurani-Kərim birmənalı olaraq Haqq mənbədən gələn Kitabdır və burada olan mesajlar, çatdırışlar birmənalı olaraq haqdır, insanın ayılması üçün önəm daşıyır. Ayədən bu nöqtələr aydın şəkildə ortaya çıxır. Birincisi, hər bir insan ölümü dadacaq. İkincisi, bu dünya imtahan yeridir və bu imtahanlardan heç bir kəsə qaça bilməyəcək. Bu dünyanın mahiyyəti imtahanlardan ibarətdir. Dənizdə olan bir insan edə bilərmi ki, su ona dəyməsin? Dənizin mahiyyəti sudan ibarətdir. Bu dünya həyatının da mahiyyəti imtahanlardan ibarətdir. Əgər bu dünya həyatının tərifini vermək istəsək, burada imtahanlılıq xüsusi olaraq qeyd ediləcək.

Ayədən aydın olan üçüncü önəmli nöqtə budur ki, bu dünya həyatında imtahanlar yalnız çətinliklərdən ibarət deyil. İnsan bu dünya həyatında həm çətinliklər, həm də asanlıqlarla imtahana çəkilir. Ona görə də insan hər bir vəziyyətinə imtahan kimi baxmalıdır. Rahatlığına imtahan kimi baxmalıdır, ağrısına imtahan kimi baxmalı, çətinliyinə imtahan kimi baxmalı, xoş ovqatına imtahan kimi baxmalıdır. Hər biri imtahandır. Biz həmin an o nemətlə necə davranırıqsa, imtahanımızın nəticəsi odur.

Dördüncü mühüm məsələ isə odur ki, bu imtahanın nəticələrinin dəyərləndirilməsi olacaq. Qiyamət günü növbəti həyat başlamazdan öncə, bu dünya həyatının dəyərləndirilməsi olacaq və əslində bunun əsasında növbəti həyatımız müəyyən ediləcək. Hamı bu dünya həyatından sonra Rəbbə tərəf qaytarılacaq. Hər kəs bu dünya həyatında yaşayır, pis və yaxşı məsələlərlə imtahan edilir və Allahın hüzuruna qaytarılacaq, orada bu həyatı necə yaşadığı dəyərləndiriləcək. İnsan bunları başa düşməli, anlamalı və həyatını bu həqiqətlərə uyğun şəkildə yaşamalıdır.

## Bəşəriyyətin uzaq düşdüyü həqiqətlər

Bəşəriyyət bu mövzulardan uzaq düşüb. Təlim-tərbiyə sistemi bu məsələlərdən çox uzaqlaşıb. İnsanın həyatdakı motivasiyası, niyə yaşaması, mövcudiyyət hədəfi bu həqiqətlərdən uzaq düşüb. Ailə bu həqiqətlərdən uzaq düşüb, dostluq bu həqiqətlərdən uzaq düşüb, zəhmətkeşlik bu həqiqətlərdən uzaq düşüb və s. Ailə bu həqiqətlərdən uzaq düşəndə, ailədə qarmaqarışıqlıqlar baş qaldırır. Ailədə bu həqiqətlər hökmranlıq edəndə, ailə nurani bir yerə çevrilir. Dostluqlar bu həqiqətlər üzərində qurulanda, dostluq əbədi olur. Bu həqiqətlərlə bağlanmayan dostluqlar burada da bitər, hətta bu dünyada yekunlaşmadan bitər. Zəhmətkeşlik, iş, çalışma bu həqiqətlərə köklənməlidir. Günün ən böyük müsibətlərindən biri budur ki, tənbəllik insan həyatının bir nömrəli məsələsinə çevrilib. İnsanlar çalışmır, işləmir, ruzi dalınca da getməyi belə başa düşür ki, bir qədər əlini tərpədəcək, dərhal ruzi bolluğuna qərq olacaq. Çalışma, səy, əzm olmadan bu həqiqətləri həyatda yaşamaq mümkün deyil. İnsanların Allah qarşısında ehsas etməli olduğu bir zəhmətkeş əxlaqı itməkdədir. Alın təri ilə ruzi qazanmaq əxlaqı uzaqlaşır. İnsanlar istəyir ki, günü yola verə-verə pul qazansın. İnsanlar arasında zəhmətkeşlik ruhiyyəsi çox aşağı düşüb. Rahatlığa can atma, birtəhər günü keçirtmə insanların həyatında dominantlıq təşkil etməyə başlayıb. Nəticədə insan həyatında bərəkətsizlik olar. İnsanların ailədə də məsuliyyət hissi aşağı düşüb. Bu, özünü övlad tərbiyəsində, ailə münasibətlərində, ailənin mənəvi tutumu haqqında çalışmaqda özünü göstərir.

Bu, elə bir halda baş verir ki, bu dünya üçün yaşayanlar, yuxarıdakı mübarək sözləri deməyənlər, bu sözləri qəbul etməyənlər bu dünya üçün yaşayırlar, səmimi olaraq da bu dünya üçün cidd-cəhdlə çalışırlar, zəhmət çəkirlər və nəticələrə çatırlar. Deyirlər ki, nə varsa, elə bu dünya həyatındadır. Bura üçün çalışmaqla bura aid nəticələrə çatırlar. Təəssüflər olsun ki, bəzən möminlik, mütədəyyinlik adı insanları səhlənkar olmağa gətirib çıxardır. Gerçək imana, gerçək möminliyə bunun heç bir aidiyyəti əslində ola bilməz. Ailədə, dostluq münasibətlərində, halal ruzi qazanmalı zəhmətkeşin fəaliyyətində səhv müqəddimələr səhlənkarlığa gətirib çıxardır.

## Arxayınçılıq olmamalıdır

Bəli, bəzən elə olur ki, bir insan dünyapərəstdir və dünyapərəst kimi ailəsinin hər cür nazı ilə oynayır, xidmətində durur. Amma, bəzən bir insan özünü dindar sayır, amma ailəsinə bir xoş demək istəmir. Əslində, bu məsələlərə ən çox mübarək İslam dini təkid edir ki, ailənizə qarşı mehriban, xoşrəftar olun. Bir də görürsən ki, bir nəfər dünyapərəstdir və bu əsasda dostluqlar edir. Dünyapərəstlik meyarları ilə yaxşı dostdur, can qoyur, öz meyarlarına görə fədakarlıqlar edir. Amma bir mömin, mütədəyyin adına olan insan rahat şəkildə dostluğunda sədaqət göstərmir. Adını da qoyur ki, vacib deyil, uzağı müstəhəbbi tərk eləyib. Bir də görürsən ki, dünyapərəst birisi digər bir dünyapərəst dostunun xeyirində, şərində çox fəal iştirak edir. Amma bir mömin, bir mütədəyyin adına olan insanın arxayınçılığı olur ki, vacib işlər deyil, vacib olsa idi, edərdi.

İnsan bəzən özünü vaciblər çərçivəsinə salır. Sonra heç vacibləri də etmir. Bir dünyapərəst zəhmətkeş başa düşür ki, əgər işləməsə, işdən qovulacaq, bu dünyasını itirəcək, ac qalacaq və s. Bu dünya üçün yaşayır, bu dünyasız qalacaq. Amma Allah etməsin, bəzən bir mömin, mütədəyyin adına olan insan düşünür ki, lazımı şəkildə çalışmasa da, ruzisi yetişəcək. Bu dırnaqarası bir "dindarlıq"dır. Bizim əziz Peyğəmbərimiz (s) zəhmətkeşin əlindən öpüb. Bizim peyğəmbərlərimizin (ə) özləri zəhmət çəkiblər, iş görüblər, özlərinin fəaliyyətləri olub. Bu dünyaya, ondan tam uzaqlaşılmalı bir məsələ kimi baxmayıblar. Bu dünyanı axirət üçün tarla biliblər, burada əkin ediblər. Bu gün dünyanın ən mühüm məsələsi - zəhmətkeşin çalışma vicdanı, çalışma əxlaqıdır.

## Dildə imanla iş bitmir

Belə başa düşülür ki, yalnız "iman gətirdim" deməklə mövzu bitmir. İnsan qəflətdə olsa, olduğu durum onun üçün ən böyük səddə çevrilər. Elə zənn edər ki, iman gətirib və bu, onun gözündə bir pərdəyə çevrilər. Bir ömür yaşayar və yekunda məlum olar ki, heç bir şey toplamayıb. Ümmət o zaman inkişaf edəcək, irəli gedəcək ki, hər bir müsəlmanın çalışması, məsuliyyəti və ardıcıllığı olsun. İslamla bağlı məsələlərlə hobbi kimi məşğul olmaqla həm fərdi, həm toplum olaraq inkişaf etmək mümkün deyil. İslam o zaman insanın inkişafında təsir qoyar ki, insan bu mübarək təlimi öz həyatının mərkəzi bilsin, bütün məsələlər bu mərkəzin ətrafında yer almış olsun. Yuxarıdakı mübarək ayədə əslində buna işarə edilir. Bu dünya həyatı Allahın insan həyatı üçün nəzərdə tutduğu pis və yaxşı məsələlərlə imtahandan ibarətdir. Bir gün bu dünya həyatımızı ölümlə yekunlaşdıracaq və yenə Ona tərəf qayıdacağıq. Deməli, varlığımız da, yoxluğumuz da, bu dünyamız da, növbəti həyatımız da Ona bağlıdır. Ona görə də, bu həyatımız məhz bu mərkəz əsasında formalaşdırılmalıdır.

**Allahım, bizlərə bu dünyada yaxşı və pis məsələlərlə imtahanlarımızda Sənin bəyəndiyin şəkildə davranmağı nəsib et!**

**Allahım, bizlərə hər an ölümü xatırlayıb, həyatımızı bu həqiqətə uyğun şəkildə yaşamağı nəsib et!**

**Allahım, Sənə dönüşümüzdə bizləri üzüqara olmağa qoyma! Amin!**

YENİ MÜSAVAT
N 27 (6348) 5 fevral 2016

# Kim sevirsə idmanı...ölür?

**Kamil Zeynalov:** "Məşqə gələnlər səhhətlərində problem olduğunu demirlər"
**Adil Qeybulla:** "İnsan idmana getməzdən əvvəl yoxlanılmalıdır"



**İdman sağlamlıqdır deyirlər. Amma hərdən insan səhhətindəki problemləri nəzərə almadan etdiyi idman hətta həyatı itirməklə nəticələnə bilər. Elə bu günlərdə "Azerbaijan Coca-Cola Bottlers" (ACCB) şirkətinin baş direktoru Cem Becel Bakıdakı ticarət mərkəzlərinin birinin idman zalında məşq edərkən vəziyyəti pisləşib. Cem Becelin infarktdan öldüyü deyilir. Bir neçə gün əvvəl isə Türkiyənin məşhur iş adamı da idman edərkən vəfat etmişdi.**

ABŞ tədqiqatçılarının apardığı araşdırmada bəlli olub ki, idman zamanı həddindən artıq su içmək də ölümə yol açan səbəblərdəndir. Tədqiqatçıların sözlərinə görə, idman zamanı yalnız susadığınız vaxtda su içməlisiniz. Əgər adi vaxt su qəbul etsəniz, qandakı sodium səviyyəsi düşər və siz hiponatremiyaya girə bilərsiniz. Bu isə olduqca dəhşətlidir. Tədqiqat rəhbəri bu mövzu barəsində bildirib: "Həddindən artıq su içilən zaman qanda sodium azalır. Böyrəklərdə isə çoxlu su toplanır və daşır. Artıq suları hüceyrələr müəyyən hissələrə ötürür. Bunun sayəsində bədənin bir çox sahələrində şişlər əmələ gəlir. Əgər bu şişlər beyində də yaranarsa, siz komaya girə bilərsiniz. Bu isə, ölümə yol açır".

Hərəkətsizlikdə insanda müxtəlif xəstəliklər yaradır. Buna görə də mütəxəssislər həftədə 2-3 saat, ya da hər gün 30 dəqiqə fitnesslə məşğul olmağı məsləhət görürlər. Əgər ağır məşqlər edirsinizsə, o halda hər gün 10-15 dəqiqə idman kifayət edir. Hər gün idmanla məşğul ola bilmədikdə isə daha çox hərəkətdə olmağa çalışın, ya da 10-15 dəqiqə təmiz havada yeriyin.

İdmanın hansı hallarda insanı öldürə biləcəyi məsələsinə gəlincə isə tanınmış məşqçi Kamil Zeynalov buna səbəbin idmana gələnlərin öz səhhətləri barədə məlumat verməməsi olduğunu dedi: "İstər qadın, istərsə də kişi məşqə gələrkən səhhətlərində problem olduğunu demirlər, özlərini sağlam göstərmək istəyirlər. Məşq zamanı ürək bulanma, baş gicəllənmə, ürəkgetmə halları baş verəndən sonra deyirlər ki, filan problemim vardı. İdman zallarında belə bir qayda yoxdur ki, hər hansısa şəxs məşqə gəlmədən öncə həkim qəbulunda olsun və sağlamlığına dair kağız gətirsin. Mən də o kağıza baxıb qəbul etdiyim şəxsin hansı problemlərinin olduğunu bilib ona uyğun məşq proqramı tətbiq edim. Mənim yanıma kimsə gələndə ilk öncə soruşuram ki, bədənində nə problemin, nə xəstəliyin var. Hansı müalicəni almısan və ya hansı əməliyyatı keçirmisən. Bütün suallarıma cavab tapandan sonra ona uyğun proqram deyirəm. Ayaqda valekozdu, ürək xəstəliyi, zobu, şəkəri olan xəstələr var ki, həmin insana qaçmaq, tullanmaq pis təsir edə bilər. Həmin xəstələrə uyğun proqramlar veririk ki, xəstəyə ziyanlı olmasın".

Məşqçi K. Zeynalov xəstə insanların məşqinin ölümlə belə nəticələnə biləcəyini dedi: "Heç kim bu hadisələrdən sığortalanmayıb. İnsanların xəstəliklərini gizlətməsi hətta həyatlarına son qoya bilər. İnsanlar bəzən arıqlayan zaman ac qalırlar, elə bilirlər ki, sağlamlıqdı. Bu isə bədənin taqətdən düşməsinə səbəb olur. Bəzən insanlar ac və ya içkili vəziyyətdə məşqə gəlirlər. Bu isə olduqca zərərlidir və ən son nəticədə bu insanların ölümü ilə nəticələnə bilər".

Tibb elmləri doktoru, professor Adil Qeybulla bir çox hallarda insanın ürəyinin fiziki yükə tab gətirə bilmədiyini dedi: "İdman zamanı ölümün müxtəlif səbəbləri ola bilər. Ürəyin qəflətən dayanması deyilən bir hadisə var ki, buna elektrik dayanma deyirlər. Bunun isə səbəbi indiyə qədər aydın deyil. İdman zamanı ölən "Azerbaijan Coca-Cola Bottlers" (ACCB) şirkətinin baş direktorunun ürəyində çox güman ki, problem olub. Əlbəttə ki, bu araşdırılmalı idi. Çox vaxt insanlar buna əhəmiyyət vermirlər. Digər tərəfdən isə bəzən fiziki yükün səviyyəsi ürək üçün həddən artıq çox olur. Ürək döyüntülərinin sayı 160-dan yuxarı qalxanda ürək əzələsi dayanır. Ola bilər ki, bu şəxsdə də hansısa ilkin bir xəstəlik olub. Yaxud da fiziki yükə dözə bilməyib. Bu cür hadisələr bir çox idmançıların başına gəlir. Məsələn, futbolçular bəzən futbol meydançasında keçinir. Çünki ürək fiziki yükə tab gətirə bilmir. Buna görə də insan idmana getmədən əvvəl yoxlanılmalı, fiziki yük səviyyəsi müəyyən edilməlidir".

❑ **Günel MANAFLI**




## Azərbaycanda "donuz qripi" aşkarlanmayıb

**"Azərbaycanda laborator müayinələr aparılır. Ölkədə kəskin respirator viruslar aşkar olunur. Amma indiyədək ölkədə "donuz qripi" aşkarlanmayıb". Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini belə Afaq Əliyeva deyib.**

O, qonşu ölkələrdə "donuz qripi" aşkarlanmasına baxmayaraq, Azərbaycanda bu virusa rast gəlinməməsinin səbəbini izah edərkən bildirib ki, bunun üçün labortator təsdiq lazımdır, laborator təsdiq yoxdursa, deməli "donuz qripi" aşkarlanmayıb.

Direktor müavininin sözlərinə görə, Naxçıvan Muxtar Respublikasında da epidemioloji vəziyyət tam sabitdir: "Naxçıvanda "donuz qrip"nin qeydə alınması barədə yayılanlar şayiədir. Təbii ki, orada da respirator viruslar aşkarlanır, amma "donuz qripi" qeydə alınmayıb. Heç kim şayiələrə inanmasın".



## Bakıda temperatur 19 dərəcəyə qədər yüksələcək

**Fevralın 5-də Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Virtualaz.org saytı Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata əsasən xəbər verir ki, bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub küləyi arabir güclənəcək.

Yarımadada gecə 4-6, gündüz 11-16 dərəcə isti olacaq. Bəzi yerlərdə 19 dərəcəyədək yüksələcəyi proqnozlaşdırılır. Bakıda gecə 4-6, gündüz 14-16 dərəcə isti olacaq.

Sabah rayonlarda hava şəraiti əsasən yağmursuz keçəcək, gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə güclənəcək.

Havanın temperaturu gecə 1-6, gündüz 12-17 dərəcə isti olacaq, bəzi yerlərdə 20 dərəcəyədək isti gözlənilir.

Dağlarda gecə 0-5 dərəcə şaxta, yüksək dağlıq ərazilərdə 5-8 dərəcə şaxta, gündüz 7-12 dərəcə isti olacaq.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*
**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**
**Əlaqə nömrəsi (050) 264 49 99**

YENİ MÜSAVAT
N 27 (6348) 5 fevral 2016

# Kim sevirsə idmanı...ölür?

## Kamil Zeynalov: "Məşqə gələnlər səhhətlərində problem olduğunu demirlər"

## Adil Qeybulla: "İnsan idmana getməzdən əvvəl yoxlanılmalıdır"



**İdman sağlamlıqdır deyirlər. Amma hərdən insan səhhətindəki problemləri nəzərə almadan etdiyi idman həttа həyatı itirməklə nəticələnə bilər. Elə bu günlərdə "Azerbaijan Coca-Cola Bottlers" (ACCB) şirkətinin baş direktoru Cem Becel Bakıdakı ticarət mərkəzlərinin birinin idman zalında məşq edərkən vəziyyəti pisləşib. Cem Becelin infarktdan öldüyü deyilir. Bir neçə gün əvvəl isə Türkiyənin məşhur iş adamı da idman edərkən vəfat etmişdi.**

ABŞ tədqiqatçılarının apardığı araşdırmada bəlli olub ki, idman zamanı həddindən artıq su içmək də ölümə yol açan səbəblərdəndir. Tədqiqatçıların sözlərinə görə, idman zamanı yalnız susadığınız vaxtda su içməlisiniz. Əgər adi vaxt su qəbul etsəniz, qandakı sodium səviyyəsi düşər və siz hiponatremiyaya girə bilərsiniz. Bu isə olduqca dəhşətlidir. Tədqiqat rəhbəri bu mövzu barəsində bildirib: "Həddindən artıq su içilən zaman qanda sodium azalır. Böyrəklərdə isə çoxlu su toplanır və daşır. Artıq suları hüceyrələr müəyyən hissələrə ötürür. Bunun sayəsində bədənin bir çox sahələrində şişlər əmələ gəlir. Əgər bu şişlər beyində də yaranarsa, siz komaya girə bilərsiniz. Bu isə ölümə yol açır".

Hərəkətsizlik də insanda müxtəlif xəstəliklər yaradır. Buna görə də mütəxəssislər həftədə 2-3 saat, ya da hər gün 30 dəqiqə fitnesslə məşğul olmağı məsləhət görürlər. Əgər ağır məşqlər edirsinizsə, o halda hər gün 10-15 dəqiqə idman kifayət edir. Hər gün idmanla məşğul ola bilmədikdə isə daha çox hərəkətdə olmağa çalışın, ya da 10-15 dəqiqə təmiz havada yeriyin.

**İdmanın hansı hallarda insanı öldürə biləcəyi məsələsinə gəlincə isə tanınmış məşqçi Kamil Zeynalov buna səbəbin idmana gələnlərin öz səhhətləri barədə məlumat verməməsi olduğunu dedi:** "İstər qadın, istərsə də kişi məşqə gələrkən səhhətlərində problem olduğunu demirlər, özlərini sağlam göstərmək istəyirlər. Məşq zamanı ürək bulanma, baş gicəllənmə, ürəkgetmə halları baş verəndən sonra deyirlər ki, filan problemim vardı. İdman zallarında belə bir qayda yoxdur ki, hər hansısa şəxs məşqə gəlmədən öncə həkim qəbulunda olsun və sağlamlığına dair kağız gətirsin. Mən də o kağıza baxıb qəbul etdiyim şəxsin hansı problemlərinin olduğunu bilib ona uyğun məşq proqramı tətbiq edim. Mənim yanıma kimsə gələndə ilk öncə soruşuram ki, bədənində nə problemin, nə xəstəliyin var. Hansı müalicəni almısan və ya hansı əməliyyatı keçirmisən. Bütün suallarıma cavab tapandan sonra ona uyğun proqram deyirəm. Ayaqda valekozdu, ürək xəstəliyi, zobu, şəkəri olan xəstələr var ki, həmin insana qaçmaq, tullanmaq pis təsir edə bilər. Həmin xəstələrə uyğun proqramlar veririk ki, xəstəyə ziyanlı olmasın".

Məşqçi K. Zeynalov xəstə insanların məşqinin ölümlə belə nəticələnə biləcəyini dedi: "Heç kim bu hadisələrdən sığortalanmayıb. İnsanların xəstəliklərini gizlətməsi hətta həyatlarına son qoya bilər. İnsanlar bəzən arıqlayan zaman ac qalırlar, elə bilirlər ki, sağlamlıqdı. Bu isə bədənin taqətdən düşməsinə səbəb olur. Bəzən insanlar ac və ya içkili vəziyyətdə məşqə gəlirlər. Bu isə olduqca zərərlidir və ən son nəticədə bu insanların ölümü ilə nəticələnə bilər".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla bir çox hallarda insanın ürəyinin fiziki yükə tab gətirə bilmədiyini dedi:** "İdman zamanı ölümün müxtəlif səbəbləri ola bilər. Ürəyin qəflətən dayanması deyilən bir hadisə var ki, buna elektrik dayanma deyirlər. Bunun isə səbəbi indiyə qədər aydın deyil. İdman zamanı ölən "Azerbaijan Coca-Cola Bottlers" (ACCB) şirkətinin baş direktorunun ürəyində çox güman ki, problem olub. Əlbəttə ki, bu, araşdırılmalı idi. Çox vaxt insanlar buna əhəmiyyət vermirlər. Digər tərəfdən isə bəzən fiziki yükün səviyyəsi ürək üçün həddən artıq çox olur. Ürək döyüntülərinin sayı 160-dan yuxarı qalxanda ürək əzələsi dayanır. Ola bilər ki, bu şəxsdə də hansısa ilkin bir xəstəlik olub. Yaxud da fiziki yükə dözə bilməyib. Bu cür hadisələr bir çox idmançıların başına gəlir. Məsələn, futbolçular bəzən futbol meydançasında keçinir. Çünki ürək fiziki yükə tab gətirə bilmir. Buna görə də insan idmana getmədən əvvəl yoxlanılmalı, fiziki yük səviyyəsi müəyyən edilməlidir".

**Günel MANAFLI**




## Azərbaycanda "donuz qripi" aşkarlanmayıb

**"Azərbaycanda laborator müayinələr aparılır. Ölkədə kəskin respirator viruslar aşkar olunur. Amma indiyədək ölkədə "donuz qripi" aşkarlanmayıb". Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva belə deyib.**

O, qonşu ölkələrdə "donuz qripi" aşkarlanmasına baxmayaraq, Azərbaycanda bu virusa rast gəlinməməsinin səbəbini izah edərkən bildirib ki, bunun üçün laborator təsdiq lazımdır, laborator təsdiq yoxdursa, deməli, "donuz qripi" aşkarlanmayıb.

Direktor müavininin sözlərinə görə, Naxçıvan Muxtar Respublikasında da epidemioloji vəziyyət tam sabitdir: "Naxçıvanda "donuz qrip"nin qeydə alınması barədə yayılanlar şayiədir. Təbii ki, orada da respirator viruslar aşkarlanır, amma "donuz qripi" qeydə alınmayıb. Heç kim şayiələrə inanmasın".




## Bakıda temperatur 19 dərəcəyə qədər yüksələcək

**Fevralın 5-də Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Virtualaz.org saytı Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata əsasən xəbər verir ki, bəzi yerlərdə zəif duman olacaq. Mülayim cənub küləyi arabir güclənəcək.

Yarımadada gecə 4-6, gündüz 11-16 dərəcə isti olacaq. Bəzi yerlərdə 19 dərəcəyədək yüksələcəyi proqnozlaşdırılır. Bakıda gecə 4-6, gündüz 14-16 dərəcə isti olacaq.

Sabah rayonlarda hava şəraiti əsasən yağmursuz keçəcək, gecə və səhər ayrı-ayrı yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə güclənəcək.

Havanın temperaturu gecə 1-6, gündüz 12-17 dərəcə isti olacaq, bəzi yerlərdə 20 dərəcəyədək isti gözlənilir.

Dağlarda gecə 0-5 dərəcə şaxta, yüksək dağlıq ərazilərdə 5-8 dərəcə şaxta, gündüz 7-12 dərəcə isti olacaq.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34



## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99

YENİ MÜSAVAT

Son səhifə

N 27 (6348) 5 fevral 2016



# Qulağından qarışqalar çıxdı

Hindistanda baş verən hadisə hər kəsi şoka salıb. Həkimlər bir qızın qulağından 1000 qarışqa çıxarıblar. Hindistanın Gucerat əyalətinin Deesa qəsəbəsində yaşayan 12 yaşlı Şeya Darji adlı qız uzun müddət qulaq ağrısından əziyyət çəkib. Balaca qızın valideynləri onun qulağından hər gün 10-15 ədəd qarışqanın bayıra çıxdığını deyiblər. Onun qulağındakı problem ilk dəfə ötən ilin avqust ayında yaranıb. Həkimlər onun qulaq kanalında qarışqalar olduğunu deyiblər. Bu günə qədər mütəmadi olaraq qulağındakı qarışqalar təmizlənib. Lakin heç bir müalicə üsulu onun qulağındakı qarışqaları təmizləməyib. Şeya Darjinin ata-anası son çarə olaraq onu falçılara da aparıb. Həkimlər onun qulağının içində heç bir anormallıq olmadığını desələr də qarışqaların necə meydana gəldiyi bəlli deyil. Qarışqaları boğmaq üçün qulaq damcısından belə istifadə edilib. Həkimlər bu anormallığın heç bir elmi əsası olmadığını desələr də, qarışqaların ora necə girdiyini və tükənmədiklərinin səbəbini müəyyən edə bilmirlər.

# Təyyarə bir sərnişinə görə uçdu

Çində tətilə çıxanlar çoxaldığı üçün bəzi sərnişinlərin uçuş saatları dəyişdirilib. Zang adlı qadın da uçuş saatı dəyişdirilən sərnişinlərdən biri imiş. Gənc qadın onun üçün təyin edilmiş saatda təyyarəyə mindiyi zaman orada tək olduğunu görüb. Təyyarənin yalnız onun üçün uçması gənc qadını xoşbəxt edib. Zang qeyri-adi təcrübəsini Çinin ən böyük sosial şəbəkəsi olan "Veibo"da paylaşıb. "BBC" televiziyasına müsahibə verən qadın "Çox xoşbəxt idim. Həyatda bir dəfə başıma gələ biləcək hadisə idi. Özümü ulduz kimi hiss edirdim" deyib. Zang stüardessaların və pilotların ona xüsusi diqqət göstərdiyini deyib.



# İnternet-asılılıq nədir?



İnternet-asılılıq - psixi pozuntu, daim internetə bağlanmaq arzusu və internetdən çıxmanın istifadəçi üçün çox çətin olmasıdır. Müasir dövrdə internet-asılılıq çox geniş müzakirələrə səbəb olsa da, onun statusu hələlik qeyri-rəsmidir. Yəni bu, bir xəstəlik kimi psixi xəstəliklər təsnifatına (DSM-IV) daxil edilməyib.

İnternet-asılılığın 5 tipi mövcuddur:

**1.** Oyun asılılığı - obsessiv (təkrarlanan) onlayn kompüter oyunlarını oynamaq cəhdidir.

**2.** Virtual tanışlıqlar və ünsiyyət - müxtəlif sosial şəbəkələrdən asılılıqdır, virtual dünyada ünsiyyətlər.

**3.** Təkrarlanan veb-sörfinq - İnternet saytlara səyahətdir, bir linkdən (sürgündən) başqasına məqsədsiz keçid.

**4.** Kiberseksual asılılıq - pornosaytlara daimi baş çəkmə və virtual sekslə məşğuliyyətə cəhddir.

**5.** Maliyyə asılılığı - internet mağazaları vasitəsilə lazımsız alış-veriş etmək ehtiyacıdır.

İnternet asılılığının psixoloji xüsusiyyətləri:

- elektron poçtun tez-tez yoxlanması;
- vaxtın hiss edilməməsi, nə vaxt ki, insan kompüter arxasındadır;
- real həyatdakı ünsiyyətlə müqayisədə online ünsiyyətə üstünlüyün verilməsi;
- şəbəkədə uzun müddət qalmağa görə ailənin və dostların şikayətləri;
- kompüter seansını sərbəst bitirməyin mümkünsüzlüyü;
- qeyri-müntəzəm qidalanma, monitorun qarşısında yemək;
- yorğunluğun yaranması, qıcıqlanmalar, əhval-ruhiyyənin azalması
- internet-asılılığın mövcudluğunun inkarı.



# İtlərin sədaqəti təsdiqləndi

Alimlər heyvansevərlərin ən çox maraqlandığı məsələlərdən biri olan "pişiklər, yoxsa itlər sahiblərini daha çox sevir" sualının cavabını tapıblar. Araşdırma zamanı it və pişiklərin sahibləri ilə oynayarkən bədənlərində əmələ gələn oksitoksin səviyyəsi ölçülüb. Nəticədə məlum olub ki, həmin maddənin səviyyəsi 57,2%, pişiklərdə isə 12%-dir. İtlərdə bir neçə dəfə hesablansa da pişiklərdə oksitoksin maddəsinin miqdarı heç vaxt ölçülməmişdi. Araşdırma zamanı 10 it və 10 pişik təxminən 10 dəqiqə sahibləri ilə oynayıblar. Nəticədə itlərdə oksitoksinin səviyyəsi inanılmaz dərəcədə yüksək çıxıb. Pişiklərdə isə bu maddənin səviyyəsi olduqca aşağı olub. Məlumat üçün bildirək ki, sözügedən maddə sevginin ən önəmli göstəricisidir. İtlərin insanları bu qədər sevməsinin səbəbi isə onların ilk əhilləşdirilən heyvanlar sırasında olmasıdır. Genetik araşdırmalara görə, itləri ilk dəfə 30 min il, pişikləri isə 20 min əvvəl əhilləşdirilməyə başlayıblar. İt sahibləri pişik saxlayanlarla müqayisədə daha sakit və sosial olurlar.




**QOÇ** - Qarşınızda normal bir gün durur. İştirakçısı olduğunuz proseslər daha çox çıxardığınız qərarlardan asılı olacaq. Hansısa məsələdə tərəddüdünüz olarsa, etibarlı və təcrübəli insanlarla məsləhətləşin.

**BUĞA** - Əsas vaxtınızı istirahətə yönəltsəniz, daha yaxşı olar. Çünki bu təqvimdə aktivlik enerjiniz aşağı olduğundan hər hansı cəhdinizin anındaca həll olunması ağlabatan görünmür. Qohum-əqrəbaya baş çəkin.

**ƏKİZLƏR** - Yeni işlərə başlamaqda çətinlik çəksəniz, məsləhətləşməkdən çəkinməyin. Onu da bilin ki, bu gün saat 11-14 arası istənilən riskiniz müvəfəqqiyyətlə nəticələnəcək. Şəxsi büdcənizdə artım da gözlənilir.

**XƏRÇƏNG** - Əgər uzaq səfərə çıxmaq fikriniz varsa, bu tarixdən yaxşı gün tapa bilməyəcəksiniz. Nəsil karmasını inkişaf etdirmək, keçmişinizdə rol oynayan insanlarla təmas gərginliyinizi xeyli səngidə bilər.

**ŞİR** - Cari işlərinizlə məşğul olmağınız yetər ki, günün ümumi mənzərəsindən razı qalasınız. Deməli, hər hansı yeni işlərə başlamaq və ya riskli sövdələşmələr aparmaq üçün münasib vaxt deyil.

**QIZ** - Qayda-qanuna riayət edin. Gizli alış-veriş, həmkar və şəriklərə yalan satmaq ağır nəticələrə səbəb ola bilər. Bu gün ağlınız kəsməyən işlərə pul qoymaq, xüsusən də kiməsə borc vermək də olmaz.

**TƏRƏZİ** - Bu gözəl gündə ulduzlar perspektivli təkliflər alacağınızı bildirir. Amma belə bir gündə doğmalarınızla münasibətlərinizin soyuqlaşmasına da imkan verməyin. Pul da gözlənilir.

**ƏQRƏB** - Üzərinizə düşən başlıca vəzifə mövqelərinizi qorumaqdan ibarət olmalıdır. Perspektivlərinizə daha tez yetişməyiniz üçün bunun böyük əhəmiyyəti ola bilər. Qidanıza fikir verin.

**OXATAN** - Bu təqvimdə lazımsız yerlərə xərc çəkməyi dayandırın. Hər bir məsələdə realliğa və məntiqə əsaslanın. Saat 17-dən sonra maraqlı sürprizlərin şahidi olacaqsınız. Sirlərinizi heç kimə deməyin.

**OĞLAQ** - Hər təsadüfi adama etibar etməyin. Əks təqdirdə planlarınızın inkişafını ləngidəcəklər. Daşınmaz əmlak alqı-satqısında gözüaçıq olun. Təzə əyin-baş almaq üçün çox uğurlu vaxtdır.

**SUTÖKƏN** - Bu gün imkan daxilində uzaq səfərləri təxirə salın. Çünki yaşadığınız məkanda perspektivləriniz daha böyükdür. Bütün hallarda doğru danışın, səhv və günahlarınızı etiraf etməyi bacarın.

**BALIQLAR** - İştirakçısı olduğunuz bütün situasiyalar xeyrinizə işləyəcək, səmərəli səfərlər, maliyyə uğurları da yolunuzu gözləyir. Yuxu və qida rejiminizi də diqqətdə saxlayın. Bədbin düşünməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Yuxusuzluq infarkt riskini artırır



Məşhur türk professorlardan biri olan Bahadır Baykal yuxusuzluğun əsəbilik və yorğunluq kimi problemlərə səbəb olduğunu açıqlayıb. İnsanlar arasında dayanmadan artan yuxusuzluq problemi bir çox xəstəliyə səbəb olmaqla yanaşı, həyat səviyyəsini də aşağı salır. Bir çox hallarda yuxusuzluq depressiyaya da səbəb olur. Ürək xəstəlikləri, mədə problemləri, iflic və infarktın bir çox hallarda səbəbi yuxusuzluqdur. Yuxusuzluğu müalicəsi isə bu xəstəliklərin aradan qaldırılmasına kömək edir.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.